

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET № 161 (7416) / Cümə axşamı, 5 sentyabr 2019-cu il





AVROPA İTTİFAQI-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ:

## "Şərq tərəfdaşlığı" və yeni strateji əməkdaşlıq modeli

BAX: SƏH.2

Bax: səh. 3



## Müavinətlərin ailənin gəlirlərindən asılı olmayaraq hər kəsə verilməsi təklifi sosial ədalət prinsipinə ziddir

## Azərbaycanın müasir neft-qaz sənayesində yeni dövrün başlanğıcı



Bax: səh. 5

Bax: səh. 4



## "Silahlı dəstə" ittihamının sirri çözüldü: yeni qalmaqal gəlir

Bax: səh. 9



*M.Zaxarova:*

## Dağlıq Qarabağ münaqişəsinə dair bəyanatlar bu münaqişənin nizamlanmasında irəliləyişə nail olmağa şərait yaratmalıdır

Bax: səh. 13



## Səngərdə döyüş əzmi, qələbə ruhu gördüm


4 | AZƏRTAC və İsrailin Tazpit agentliyi Əməkdaşlıq barədə Anlaşma Memorandumu imzalayıblar

6 | ƏLİ KƏRİMLİYƏ XATIRLATMA: Zaman hakimliyini, tarix yaddaşını itirməyib

16 | Solaxaylar haqqında nə bilirik?

## Avropa İttifaqı-Azərbaycan münasibətləri:

# "Şərq tərəfdaşlığı" və yeni strateji əməkdaşlıq modeli




**Bir neçə müddətdir ki, Avropa İttifaqı ilə Azərbaycan arasında yeni əməkdaşlıq sənədinin hazırlanması ilə əlaqədar bəzi məsələlər qızğın nəzəri diskussiyaların mövzusuna çevrilib. Burada fərqli mövqelər ifadə edilir, bəzən hətta bir-birinə zidd tezislər səsləndirilir.**

Rəsmi Bakı isə təmkinli və reallığı əks etdirən fəal mövqe tutur, tərəfdaşlıq sazişi üzrə danışıqların konstruktiv müstəvidə davam etdirildiyini ifadə edir. Bu xüsusda ekspertlər bir mühüm məqama diqqət yetirməlidirlər. Azərbaycan ayrı-ayrı dövlətlər və təşkilatlarla bərabərhüquqlu və qarşılıqlı hörmətə əsaslanan əlaqələrə üstünlük verir. Suverenlik və milli maraqların qorunması başlıca yer tutur. Aİ-nin "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlıq təkliflərində müəyyən məqamlar onu qane etmədiyindən özünün əməkdaşlıq modelini irəli sürüb. Bu istiqamətdə səmərəli müzakirələr aparılır. Məhz bu kontekstdə Aİ-Azərbaycan münasibətlərinin bir sıra aspektləri üzərində geniş dayanmağa ehtiyac görürük.

### Əməkdaşlığın tarixi: transformasiya mərhələləri

Azərbaycan müstəqillik əldə etdikdən sonra Avropa İttifaqı ilə münasibətlərin qurulması bütün aktuallığını əyani şəkildə nümayiş etdirməyə başladı. Təsadüfi deyil ki, Ulu öndər Heydər Əliyev ölkənin xarici siyasət kursunu müəyyən edərkən bu nüfuzlu Avropa qurumu ilə əlaqələri prioritet istiqamətlərdən biri kimi müəyyən edib. 1999-cu ildə isə Aİ ilə tərəfdaşlıq və əməkdaşlıq sazişi imzalanıb. Bu, tərəflər arasında qarşılıqlı əlaqələrin hüquqi əsasını təşkil edirdi. XXI əsrin başlanğıcından Aİ-nin özünün daxilində, qlobal geosiyasətdə və regional məsələlərdə dəyişikliklər meydana gəldi. 2004-cü ildə təşkilatın 10 ölkə ilə genişlənməsi Aİ-nin daxili və xarici siyasətinə öz möhürünü vurdu.

Avropa Qonşuluq Siyasəti (AQS) adlanan proqram qəbul edildi. Bu proqramda təşkilatın öz qonşuları ilə münasibətlərini tənzimləməsi qaydaları və hüquqi şərtləri ifadə olundu. Bu, iki istiqamətdə - Aralıq dənizi bölgəsi və Şərq istiqamətində reallaşmalı idi. Xatırladaq ki, Balkanlar ayrıca xətti təşkil edirdi, çünki həmin istiqamətdə ölkələrin Aİ-yə üzv qəbul edilməsi nəzərdə tutulurdu.

Aİ-nin Şərq istiqamətindəki qonşuluq siyasətində isə Cənubi Qafqaz xüsusi yer tutdu. Lakin 2008-ci il Rusiya-Gürcüstan müharibəsi və 2008-2009-cu illərdə Ukraynanın üzləşdiyi qaz münaqişəsi mövcud reallığı kəskin surətdə dəyişdi. Aİ Şərq qonşularının təşkilata daxil olması şərtini aradan qaldırdı və assosiativ üzvlük məsələsi önə çıxdı. Bununla yanaşı, Aİ azad ticarət zonasının yaradılması, enerji təhlükəsizliyi, insan haqları, Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlük kimi məsələləri də önə çəkdi.

Aydın görünürdü ki, Aİ yeni qonşularına sırf özünün geosiyasi, iqtisadi, enerji və maliyyə maraqları prizmasından baxır. Onun 2007-ci ilə kimi həyata keçirdiyi əməkdaşlıq proqramları - TRASEKA, TASİS, İNOGEYT və digər təşəbbüslər dolayısı ilə həmin məqsədlərlə bağlı idi. 2007-ci ildə geosiyasi vəziyyət dəyişəndə, Aİ yeni proqramlar hazırladı. Məsələn, TASİSproqramı Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti (AQTA) ilə əvəz olundu. AQTA yeni qonşularla daha sıx və əhatəli əlaqələrin qurulmasını nəzərdə tuturdu. Bu proqramdemokratiya və insan hüquqlarının təşviqi, bazar iqtisadiyyatına keçidin asanlaşdırılması və davamlı inkişafın təşviqi, habelə qarşılıqlı maraq kəsb edən sahələrdə əməkdaşlığın inkişafını özündə ehtiva edir. AQTAçərçivəsində Tvinninq, Texniki yardım və Məlumat mübadiləsi (TAİEX), Büdcəyə dəstək, Tempus, Erasmus Mundus kimi proqramlar həyata keçirilib.

Onu vurğulayaq ki, AQTA çərçivəsində 2007-ci ildə Brüssel 2007-2013-cü illər üçün Azərbaycanla əməkdaşlığı ifadə edən strateji sənəd hazırladı. Bu sənəddə Azərbaycanda bazar iqtisadiyyatının inkişafına yardım, təhlükəsizlik məsələsi və Aİ-Azərbaycan Birgə Fəaliyyət Planının həyata keçirilməsi ifadə edilib. 2008-ci ildə isə postsovet məkanının altı ölkəsini əhatə edən "Şərq tərəfdaşlığı" proqramı irəli sürüldü. 2009-cu ildə Praqada "Şərq tərəfdaşlığı"nın təsis sammiti keçirildi. Bununla da faktiki olaraq, Aİ-nin Ukrayna, Moldova, Belarus, Azərbaycan, Gürcüstan, Ermənistan istiqamətlərində qonşuluq siyasəti məzmun və məqsəd baxımından transformasiyaya uğradı.

Nədənsə, bir sıra ekspertlər Aİ-Azərbaycan əlaqələrinə bu transformasiyaların özündə daşıdığı məzmun çalarları kontekstində baxmır, həmin səbəbdən də tərəflər arasında münasibətlərin real dinamikasını dərk etməkdə çətinlik çəkirlər. O cümlədən Azərbaycanın hansı səbəblərdən 2007-ci ildən Aİ ilə münasibətlərə özəl aspektdə yanaşmağa başlamasının arxasında dayanan real faktları qəbul edə bilmirlər. Məsələ ondan ibarətdir ki, "Tərəfdaşlıq və əməkdaşlıq haqqında" sazişdən (TƏS) başlayaraq, Aİ Azərbaycan siyasətində bir xətti qorumağa çalışıb - əlaqələri özünün geosiyasi, iqtisadi, təhlükəsizlik və enerji təhlükəsizliyi maraqlarına uyğun qurmaq. Bunun konkret təzahürlərindən biri də assosiativ üzvlük və ÜTT-yə üzv olmaqdır. Ola bilsin ki, hansısa postsovet məkanı ölkəsi üçün bu cür yanaşma qəbul edilləndir, ancaq Azərbaycanın suverenliyi və müstəqilliyi üçün iki mühüm faktor vardır. Birincisi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli və beynəlxalq hüquq normaları çərçivəsində həlli sayəsində ərazi bütövlüyünün bərpası, ikincisi, bütün istiqamətlərdə müstəqil kursun qorunub saxlanması, milli maraqların təmin edilməsi.

### Müstəqillik və suverenlik: iki mühüm şərt

Aİ ilə əlaqələr də mütləq surətdə bu iki məqamı nəzərə almalıdır. Məhz həmin səbəbdəndir ki, rəsmi Bakı assosiativ üzvlük modelini qəbul etmədi, əvəzində, hər iki tərəf üçün faydalı olan strateji tərəfdaşlıq üzrə yeni hərtərəfli saziş təklifini irəli sürdü. 2015-ci ildə Riqa sammitində Azərbaycan rəhbərliyi bu barədə açıq və konkret mövqe bildirdi. Bir qədər çaşqın vəziyyətə düşən Brüssel, nəhayət, bunu qəbul etdi və 2017-ci ildə Azərbaycanın təklif etdiyi əməkdaşlıq modeli üzrə danışıqlar başladı. 2018-ci ildə "Tərəfdaşlığın prioritetləri" adlı sənəd paraflandı.

Beləliklə, aydın oldu ki, Azərbaycan iqtisadi, siyasi, geosiyasi, energetik müstəqilliyini qoruyub saxlayaraq Aİ ilə strateji tərəfdaş olmağa hazırdır. Bunun əsasında Aİ Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini, sərhədlərinin toxunulmazlığını əks etdirən yeni bir sənədi də qəbul etdi. Hazırda strateji tərəfdaşlıq sənədi üzərində iş davam edir. Təbii ki, bu, asan proses deyil. Çünki ilk dəfədir ki, Aİ "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində tərəfdaş olan ölkənin özünün təklif etdiyi əməkdaşlıq sənədi üzərində işləyir. Adətən, "Şərq tərəfdaşlığı"nın digər üzvləri Brüsselin şərtlərindən kənara çıxa bilmirlər. Bu da onları Aİ-nin xarici siyasətinin birbaşa obyektinə çevirir. Yəni söhbət Brüsselin irəli sürdüyü şərtlər daxilində əlaqələrdən gedə bilər.

Azərbaycan isə bərabərhüquqlu tərəfdaş kimi Aİ ilə əməkdaşlıq modeli təklif edib və onu qətiyyətlə reallaşdırır. Hərçənd, Brüssel istərdi ki, əlavə şərtlərlə Bakını özündən asılı vəziyyətə salsın, Azərbaycan isə bərabərhüquqluluğu tam qorumağa çalışır. Bu məqamda Brüssellə Bakının müəyyən fikir ayrılığı ola bilər. Məsələn, ÜTT-yə üzvlüklə bağlı fikir ayrılığı qala bilər. Çünki o halda Azərbaycan üzərinə müəyyən məhdudlaşdırıcı öhdəliklər götürməlidir. Təcrübə göstərir ki, böyük dövlətlər belə ÜTT-nin bir sıra şərtləri ilə razı deyillər. Onlar dövlətlərə eyni dərəcədə yanaşılmadığını deyirlər. O halda ÜTT-yə şərtsiz daxil olmağın mənası nədir? Aİ bu faktordan istifadə edib Azərbaycana başqa şərtlər qoymayacaq ki?

Bu kimi suallara cavab tapılmalıdır. Bunlarla yanaşı, Ermənistan da ÜTT-yə üzvdür. Eyni zamanda, bu ölkə Azərbaycana qarşı təcavüzkar siyasət yeridir. Bu istiqamətdə ÜTT daxilində Azərbaycan Ermənistanla necə tərəfdaş ola bilər? Meydana indi görünməyən çox sayda qeyri-müəyyən məqamlar çıxır.

Onu da nəzərə almaq lazımdır ki, Aİ Azərbaycanın ərazi bütövlüyünü tanısa da, işğalçı Ermənistanla da sıx əlaqələrə can atır. Hətta forpost ölkəyə daha böyük vədlər də verilir. Hakimiyyət strukturlarının demokratikləşməsi, korrupsiya ilə mübarizə və s. kimi vəzifələrdən bəhs edilir. Və sanki Dağlıq Qarabağ işğal olunmayıb. Ermənistan qonşu dövlətin ərazilərini tutmayıb. Bu baxımdan Aİ-nin "Şərq tərəfdaşlığı" təşəbbüsü çərçivəsində də İrəvana qarşı hər hansı ciddi tələb irəli sürdüyü görünmür.

Bütün bunlar, əlbəttə, Azərbaycan-Aİ münasibətlərinə təsirsiz ötüşmür. Lakin hazırlanan sənədin başa çatdırılması tamamilə mümkündür. Tərəflərin ortaq mövqeyə gələcəyinə şübhə yoxdur. Sadəcə, anlamaq və qəbul etmək lazımdır ki, Azərbaycan müstəqil dövlət kimi öz maraqlarını heç nəyə güzəştə gedə bilməz. Xüsusilə söhbət ərazi bütövlüyündən və enerji təhlükəsizliyindən gedirsə, bu, mümkün deyil.

Müasir mərhələdə müstəqil dövlət olmaq asan deyil. Bütün məsələlərdə milli mənafeləri qorumaq gərəkdir. Təcrübə göstərir ki, bir sıra ölkələr bu məsələdə kifayət qədər qətiyyətli ola bilmirlər. Azərbaycan isə həmin məsələdə son dərəcə yüksək iradə və qətiyyətlilik göstərir. Avropa İttifaqı ilə hazırlanan yeni strateji əməkdaşlıq sənədində də bu məqam tam şəkildə öz əksini tapıb.

**Newtimes.az**

# Müavinətlərin ailənin gəlirlərindən asılı olmayaraq hər kəsə verilməsi təklifi sosial ədalət prinsipinə ziddir



2019-cu ilin arxada qalan uğurlarından bəhs edərkən 10 milyonluq ölkə olduğumuzu xüsusi qeyd edirik. Atdığı addımları ilə hər bir vətəndaşının Prezidenti olduğunu təsdiqləyən dövlətimizin başçısı İlham Əliyev daim bildirir ki, vətəndaş amili dövlət siyasətinin əsasında dayanır.

Cari ilin ötən dövründə atılan addımlara diqqət yetirsək, sosial müdafiənin prioritetliyini daha aydın görərik. İqtisadi tərəqqinin güclü sosial siyasətlə tamamlanması minlərlə insana sevincin bəxş olunması ilə nəticələnir. Bu isə özlüyündə vətəndaş məmnunluğunu artırır, yeni-yeni təşəbbüslərin gündəmə gətirilməsinə və uğurlu icrasına yol açır. Məhz bu məqamlara söykənərək dövlətimizin başçısı bildirir ki, təşəbbüslərin dəstəklənməsi cəmiyyətdə xoş əhval-ruhiyyə yaradır.

İslahatlar daha da dərinləşir, müsbət dinamika davam edir. Əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən addımlardan biri yeni iş yerlərinin yaradılmasıdır. Ümumilikdə son 15 ildən artıq dövrdə 1 milyon 900 min yeni iş yeri açılıb. İşsizlik və yoxsulluq səviyyəsi 5 faizdir. Bu əminlik beynəlxalq maliyyə qurumlarının proqnozlarında da öz əksini tapıb ki, Azərbaycanın iştirakçısı və təşəbbüsçüsü olduğu enerji layihələrindən dövlət büdcəmizə milyardlarla dollar vəsait daxil olacaq, ən əsas inkişaf tempi bu şəkildə davam edərsə, yaxın zamanlarda yoxsulluq həddi heçə enəcək. Dövlətimizin başçısı İlham Əliyev 2003-cü ildə keçirilən andiçmə mərasimində yoxsulluq kimi sosial bəlanın aradan qaldırılmasını qarşıya mühüm vəzifə kimi qoyub. Son 15 ildə yoxsulluq səviyyəsinin 49 faizdən 5 faizə enməsi müsbət göstərici olmaqla yanaşı, bu reallığın da təsdiqidir ki, həyata keçirilən siyasətin önündə insan amili dayanır. Azərbaycan brendi kimi dünyada tanınan "ASAN xidmət", ABAD, DOST və s. kimi biri-birindən önəmli layihələr əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, şəffaflığın artırılmasına, innovativ həllərin tətbiqi və elektron xidmətlərə keçidin sürətləndirilməsinə, habelə süründürməçilik hallarının qarşısının alınmasına və vətəndaş məmnunluğunun artırılmasına xidmət edir.

İqtisadiyyatın aynası, davamlı inkişafın barometri kimi dəyərləndirilən dövlət büdcəsinin real göstəriciləri və artım səviyyəsi də hər bir dövlətdə təkcə vətəndaşların yaşayış səviyyəsini deyil, ümumilikdə hökumətin fəaliyyətinin səmərəliliyini, faydalı iş əmsalını dəyərləndirməyə imkan verir. Cənab İlham Əliyev daim bu məqsədi qarşıya qoyur ki, qarşıdakı ilin dövlət büdcəsi arxada qalan ilin büdcəsindən kəmiyyət və keyfiyyət baxımından üstün olmalıdır. Ölkəmizin son illərdə davamlı iqtisadi inkişafı, idarəetmə sistemində təkmilləşmə, enerji layihələrinin uğurlu icrası və s. kimi mühüm amillər makroiqtisadi göstəricilərə öz müsbət təsirini göstərir. Bu kimi addımlar təsdiqləyir ki, qarşıdakı illərdə ölkəmiz bütün sahələrdə dinamik inkişafa malik olacaq. Enerji sektorundan asılılığın azaldılması, qeyri-neft sektorunun inkişafı istiqamətində tədbirlərin həyata keçirilməsi prioritet vəzifələrdəndir.

Daim vurğulandığı kimi, Azərbaycan son illərdə özünü dünyaya sosial dövlət kimi təqdim edib. Özünüməşğulluğun təminatı, ailə təsərrüfatlarına asan dəstəyin göstərilməsi öz növbəsində işsizliyin və yoxsulluğun səviyyəsinin aşağı salınmasına, əmək qabiliyyətli əhalinin iqtisadi fəallığının yüksəlməsinə, eyni zamanda, ölkənin məşğulluq strategiyasının səmərəliliyinə geniş imkanlar açır. Dövlətimizin başçısı İlham Əliyevin 30 oktyabr 2018-ci il tarixli Sərəncamı ilə təsdiqlənən "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nın əsas hədəflərindən biri də məhz işsizlik səviyyəsini 2030-cu ilədək 4 faizə, o cümlədən qadınlar və gənclər arasında işsizliyi minimum səviyyəyə endirməkdir. 2019-cu il üçün yaşayış minimumu dövlətimizin sosialyönümlü büdcəsini əks etdirir. Bu ildə yaşayış minimumu ölkə üzrə 180 manat, əmək qabiliyyətli əhali üçün 191 manat, pensiyaçılar üçün 149 manat, uşaqlar üçün 160 manat müəyyən edilib. Müqayisə üçün qeyd edək ki, 2018-ci il üçün yaşayış minimumu ölkə üzrə 173 manat, əmək qabiliyyətli əhali üçün 183 manat, pensiyaçılar üçün 144 manat, uşaqlar üçün 154 manat məbləğində müəyyən edilmişdir.

İnsan amilinə verilən dəyər davamlı inkişafı stimullaşdırır. "Gələcək nəsillərin inkişaf və rifah içində yaşaması bugünkü çağırışlara düzgün cavabların tapılmasından çox asılıdır" söyləyən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, maliyyə imkanları artdıqca ilk olaraq sosial müdafiənin gücləndirilməsinə yönəldilir.

Son vaxtlar uşaqlar üçün verilən müavinətin bərpası məsələsi ətrafında aparılan müzakirələrdə bu kimi uğurların təhlili bir zərurət kimi ortaya qoyulur. Nəzərə almaq lazımdır ki, həm müavinət, həm ünvanlı sosial yardım, həm də ailələrə dəstək proqramları paralel icra oluna bilməz. "Uşaq pulu" yuxarı məbləğdə təyin olunacaqsa, ailə avtomatik ünvanlı sosial yardım almaq imkanını itirir. Yəni, ailənin gəlirləri artacaq və onlara ünvanlı sosial yardım tətbiq olunmayacaq. Müavinətlərin ailənin gəlirlərindən asılı olmayaraq hər kəsə verilməsi təklifi isə sosial ədalət prinsipinə ziddir. Gəlirləri yüksək olan ailələrə dövlət tərəfindən 50 və ya 100 manatın verilib-verilməməsi onlar üçün hissolunacaq dərəcədə təsirli olmayacaq. Halbuki həmin vəsaitin aztəminatlı ailələrin təminatına yönəldilməsi daha məqsədyönlüdür.

Əvvəldə də qeyd etdiyimiz kimi, bu il Azərbaycanda 10 milyonuncu sakin dünyaya gəldi. Ölkəmiz yalnız Cənubi Qafqazda deyil, bütövlükdə postsovet ölkələri arasında ən yaxşı demoqrafik göstəricilərə malikdir. Əhali artımı, eləcə də əhalinin demoqrafik balansında uşaq, yeniyetmə və gənclərin faizləri yüksəkdir. Son 15 ildə əhali artımı 1.7 milyon nəfər təşkil edib.

Sosial müavinətlər verilərkən ailədə uşaqların olması, uşaqların sayı da diqqətdə saxlanılır və ünvanlılıq prinsipi əsas götürülür. Bu ilin ötən dövründə iki sosial paketin təsdiqlənməsi əməkhaqqının və minimum pensiya məbləğinin artımı ilə müşayiət olunub. Bu isə dövlətin əhalinin maddi rifahının yüksəlməsi üçün daha böyük sosial yük götürdüyünü və məsələləri köklü şəkildə həll etmək niyyətini nümayiş etdirir. Dövlətimizin başçısı İlham Əliyevin iyunun 18-də imzaladığı 17 Sərəncamın əhatə dairəsi belədir: minimum aylıq əməkhaqqı 180 manatdan 250 manata çatdırılır. Dövlət qulluqçularının aylıq vəzifə maaşları 50 faiz, hərbi və hüquq-mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqları 40 faiz, dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşları orta hesabla 20 faiz, dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşları isə orta hesabla 40 faiz artırılır.

Ölkə Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, artan büdcə imkanları əhalinin sosial rifahının yüksəldilməsi üçün istifadə olunur. Eyni zamanda, insan kapitalının inkişaf etdirilməsi məqsədilə əlavə resurslar təhsilə, elmə yönəldilir. Azərbaycanda ötən illər ərzində insan resurslarının, insan kapitalının inkişafı naminə ciddi layihə və proqramlar həyata keçirilmiş, minlərlə gənc dövlət hesabına xaricdə bakalavr, magistr və doktorant təhsili almışlar.

Sosial siyasətin tərkib hissəsi olaraq Azərbaycanın bütün yaşayış məntəqələri, bölgələri müasir uşaq bağçaları, məktəblər, xəstəxanalarla təmin edilib və təmin edilməkdədir. Ölkənin bütün yaşayış məntəqələri içməli su, elektrik enerji ilə fasiləsiz təmin edilir. Qazlaşdırma 98 faiz səviyyəsindədir. Avtomobil yolları şəbəkəsi yenilənib və əhatə dairəsi genişlənib.

Atılan bu addımlar fonunda ötən əsrin 70-80-ci illərində ailələrin 11 manat uşaq pulu ilə dolanması, daha doğrusu, dolanışıq xatirinə ailə üzvlərinin sayının fiziki artımına gedilməsi haqqında bəzi müxalifətçilərin sovet nostalgiyası ilə çıxış etmələri ciddilikdən uzaqdır. Bu formada təkliflər verilərkən maliyyə yükü amili, bütövlükdə ailələrin sosial müdafiəsində hansı proqramların (ünvanlı sosial yardım sistemi, özünəməşğulluq proqramları) daha çox fayda verdiyi önə çıxarıla bilər.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

## Rövşən Məmmədov "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədri təyin edilib

Prezident İlham Əliyev Rövşən Məmmədovun "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, Rövşən Raqif oğlu Məmmədov "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri təyin edilib. Prezidentin digər sərəncamı ilə Rövşən Məmmədov "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti sədrinin müavini vəzifəsindən azad olunub.

## Prezident İlham Əliyev Əminə Dilbazinin 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb

Prezident İlham Əliyev Əminə Dilbazinin 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

2019-cu ilin dekabr ayında Azərbaycan xoreoqrafiya məktəbinin tanınmış nümayəndəsi, görkəmli rəqs ustası, respublikanın Xalq artisti Əminə Paşa qızı Dilbazinin anadan olmasının 100 illiyi tamam olur.

Əminə Dilbazi Azərbaycan rəqs sənətinin çoxəsrlik ənənələrinin qorunub yaşadılmasında müstəsna xidmətlər göstərmişdir. Sənətkar uzunmüddətli fəaliyyəti ərzində daim yüksək səhnə mədəniyyəti nümayiş etdirmiş, fitri istedadı və bənzərsiz ifaçılıq imkanları sayəsində xalq rəqslərinin qiymətli nümunələrinə yeni çalarlar qazandıraraq onları orijinal ifa tərzi ilə xeyli zənginləşdirmişdir. Rəngarəng repertuarında, eyni zamanda, dünya xalqlarının rəqslərinə geniş yer ayıran Əminə Dilbazinin mötəbər beynəlxalq müsabiqə və festivallardakı uğurlu çıxışları Azərbaycan incəsənətinin çoxsaylı nailiyyətləri sırasındadır. O, kinofilmlərdə, teatr tamaşaları və opera əsərlərində rəqslərə yüksək məharətlə quruluş vermiş, eləcə də professional rəqs qruplarının bədii rəhbəri kimi tanınmışdır. Əminə Dilbazinin, həmçinin xoreoqrafiya sənətinin inceliklərinin gənc nəslə öyrədilməsi istiqamətində fəaliyyəti təqdirəlayiqdir.

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Xalq artisti Əminə Dilbazinin 100 illik yubileyi ilə əlaqədar tədbirlər planı hazırlayıb həyata keçirsin.

Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

## Bakı Şəhər İcra Hakimiyyəti paytaxt sakinlərinə müraciət edib



Bakı Şəhər İcra Hakimiyyəti sahibkarlara, müəssisə və təşkilat rəhbərlərinə istifadələrində olan obyektlərin qarşısında yerləşən ərazilərdə mövcud yaşıllıqların günün tələbləri səviyyəsinə çatdırılmasını, yeni yaşıl guşələrin yaradılmasını və saxlanılmasını tövsiyə edir. Bu praktika dünyanın bir çox ölkələrində mövcuddur.

Yaşıl guşələrin yaradılması və qorunması məqsədilə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı müvafiq Sərəncam imzalayıb.

İcra Hakimiyyətindən Trend-ə verilən məlumata görə, paytaxtın yaşıllıq səviyyəsinin keyfiyyətcə daha yüksək səviyyəyə çatdırılması məqsədilə həyata keçirilən bu tədbirlər paytaxtın estetik görünüşünün yaxşılaşdırılmasına və keyfiyyətcə yeni səviyyəyə çıxmasına təkan verəcək.

Qeyd edək ki, sözügedən sərəncam yaşıllaşdırılması dövlət vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulan ərazilərə şamil edilmir.

Şəhərimizdə obyektlərin qarşısındakı yaşıl guşələr heç də hər yerdə günün tələblərinə cavab vermir.

## AZƏRTAC və İsrailin Tazpit agentliyi Əməkdaşlıq barədə Anlaşma Memorandumu imzalayıblar



*Amotz Ayal:*

***Bu sənəd Tazpit-in xarici xəbər agentliyi ilə imzaladığı ilk rəsmi əməkdaşlıq müqaviləsidir***



AZƏRTAC və İsrailin Tazpit xəbər agentliyi informasiya mübadiləsi və media texnologiyaları sahəsində əməkdaşlığa başlayır.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov ilə Tazpit agentliyinin təsisçisi və icraçı direktoru Amotz Ayal arasında Bakıda keçirilən görüşdə əlaqələrin qurulması və perspektivləri ətrafında geniş müzakirələr aparılıb. Azərbaycan və İsrail arasında sıx mədəni, tarixi əlaqələrin olduğunu deyən Aslan Aslanov ölkələrimizin hazırda bir çox sahələrdə uğurla əməkdaşlıq etdiyini bildirib. Qeyd olunub ki, bütün bunlar informasiya sahəsində də tərəfdaşlıq üçün böyük imkanlar açır. İlkin mənbədən məlumat mübadiləsinin iki ölkə arasında bütün istiqamətlər üzrə münasibətlərin daha da inkişafına töhfə verəcəyinə əminlik ifadə olunub.

AZƏRTAC ilə tərəfdaşlığa böyük önəm verdiklərini vurğulayan Tazpit agentliyinin icraçı direktoru Amotz Ayal bu əməkdaşlığın ölkələrimizi bir-birinə daha yaxından tanıtmaq baxımından faydalı olacağını deyib. “Tazpit İsrailin ilk xəbər agentliyi olaraq ölkə həyatının bütün sahələri üzrə informasiya yayır. Yeni yaranmış media qurumu olmasına baxmayaraq, media texnologiyalarını fəal şəkildə tətbiq edir”, - deyə Amotz Ayal bildirib.

Sonra Əməkdaşlıq barədə Anlaşma Memorandumunun imzalanma mərasimi olub. AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov və Tazpit agentliyinin təsisçisi və icraçı direktoru Amotz Ayal tərəfindən imzalanan sənəd xəbər, foto və video materialların mübadiləsini, kadrların hazırlığı və media texnologiyaları sahəsində əməkdaşlığı nəzərdə tutur. Razılaşmaya əsasən, agentliklər gündəlik xəbər mübadiləsi həyata keçirəcəklər.

Amotz Ayal AZƏRTAC-ın jurnalistləri ilə görüşdə bildirib ki, bu gün imzalanan sənəd Tazpit-in xarici xəbər agentliyi ilə ilk rəsmi əməkdaşlıq müqaviləsidir. O, ilk tərəfdaş kimi AZƏRTAC-ı seçmələrinin təsadüfi olmadığını deyib. Qeyd edib ki, AZƏRTAC-ın yüzdən çox agentliyi ətrafında birləşdirən Dünya Xəbər Agentlikləri Konqresinə, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatına sədrlik etməsi, nüfuzlu xəbər agentlikləri ilə tərəfdaşlıq əlaqələri qurması bu seçimi şərtləndirən amillərdir. Əsasən də buna İsrail və Azərbaycan arasında münasibətlərin yüksək səviyyəsi öz təsirini göstərib.

Görüşdə, həmçinin Azərbaycanda multikultural mühitdən, Azərbaycan və yəhudi xalqlarının burada tarixən sülh şəraitində yaşamasından, müasir media və jurnalistikanın inkişafı tendensiyalarından danışılıb.

# “Silahlı dəstə” ittihamının sirri çözüldü: yeni qalmaqal gəlir

## AXCP SƏDRİNİN BƏYANATI İLƏ CLİVE DUNNIN PAYLAŞIMLARI TƏSADÜFDƏN UZLAŞMAYIB

**Həmişə belə olur: günlərin birində müxalif düşərgədən kimsə səhər oyanır, yuxuda görübmüş kimi, gündəmə aidiyyəti olmayan bir mövzudan danışır, bir-iki nəfər özü düşüncəli şəxs ona yan tutur və məsələ “unudulub gedir”. Bir müddət sonra isə Avropada kiminsə “qəflətən yadına düşür ki”, bəs Azərbaycanda filan vaxt filan məsələ “baş verib”, münasibət bildirmək lazımdır. Beləcə, şübhə etdiyimiz, ciddiyə almadığımız bir “olay” dönüb-fırlanır, beynəlxalq təşkilatların gündəminə daşınır, Azərbaycan əleyhinə bəyanata, hesabata çevrilir və pasportlaşır. İndi həmin günlərdən və anlardan birini yaşayırıq.**

AXCP sədri Əli Kərimli iddia edir ki, “Hökumətin əlisilahlı yandaşı, Fuad Muradov” adlı şəxs AXCP funksioneri Nicat Abdullazadəni ölümlə hədələyib, evinə basqın edəcəyini bildirib. O və “Radikal düşərgə” təmsilçilərindən ibarət yandaşları Fuad Muradov adlı şəxsin kimliyinin araşdırılmasında maraqlı deyillər. Belə bir araşdırma edənləri və ya araşdırma təklifi irəli sürənləri də öz trolları vasitəsilə yanar oda salırlar, haqqında hədyanlar yazır, “hökumətin müxalifət üzərinə hücumuna haqq qazandırmaqda” qınayırlar. Qarşı tərəf də abırına qısılıb kənar çəkilir. “Radikallara” da bu lazımdır. Bu yolla mövzunu dəyişirlər. Fuad Muradov personası “yaddan çıxır”. Gün keçəcək, ay dolanacaq, baxacaqsan ki, hansısa “nüfuzlu beynəlxalq təşkilat” həmin “fakta” istinad edib Azərbaycan hakimiyyətini “qanunsuz silahlı dəstələr yaratmaqda, müxalifət təmsilçilərinə qarşı basqınlar qurmaqda” ittiham edəcək.

Simptomları görünür artıq. Əgər sosial şəbəkələrdəki “müzakirələrə” diqqət etsəniz, görəcəksiniz ki, Əli Kərimlinin tərəfdarları Fuad Muradov adlı şəxsin “tapılıb cəzalandırılmasını” tələb etmirlər, ondan nə üçün belə bir açıqlama yazmasına görə hesab sormurlar, ümumiyyətlə, onun hər hansı bir açıqlama verib mövqeyini izah etməsinə maraq göstərmirlər. Bütün müzakirələrdə hədəf Fuad Muradovun hansısa yolla “hakimiyyətə bağlanılmasıdır”, silahlı fotonun hakimiyyətə qarşı “silahlı dəstə qururlar” ittihamına çevirməsidir.

Bilirlər ki, yalandır, bu versiyalar qondarmadır. Əksinə, xalqın mövcud iqtidarı dəstək-



MÜŞFİQ ƏLƏSGƏRLİ

ləməsinin, AXC-Müsavat hakimiyyətindən üz döndərməsinin əsas səbəblərindən biri də məhz 1992-1993-cü illərdə mövcud olan özbaşınalığa son qoymasıdır, qanunsuz silahlı dəstələri zərərsizləşdirməsidir, mübahisələrin hüquqdankənar formalarla həll edilməsini aradan qaldırmasıdır, kriminogen duruma nəzarət edə bilən güclü hüquq mühafizə sistemi qurmasıdır. “Fədailər qrup”ları yaratmaq, indi bu ittihamı mövcud hakimiyyətə qarşı irəli sürənlərin özlərinin dünyagörüşünün məhsuludur. Həmin dünyagörüşdən hələ də kənara çıxa bilmirlər.

Digər tərəfdən, aşkara çıxdı ki, Fuad Muradov AXC-Müsavat iqtidarı dövründə silahlı dəstələrdən birinin rəhbəri olmuş Alik Muradovun oğludur. O, psixoloji dünyagörüşü baxımdan AXC-yə, bugünkü AXCP sədrinə daha yaxındır. Deməli, Əli Kərimlinin Muradovu “öz düşərgəsindən çıxarıb” mövcud hakimiyyətə yaxın bir çevrədə yerləşdirməyə cəhd göstərməsində konkret qəsdi var. Nədir bu qəsdin məğzi?

Bəli, yanılmamışıq. Bu açıqlama təsadüfdən gündəmə çıxmayıb, unudulası da deyil. Həmişəki kimi qərəzli, uydurma, amma genişmiqyaslı bir qarayaxma kampaniyasının başlanacağının simptomlarıdır.

AXCP sədrinin “Fuad Muradovun silahlı dəstəsi” açıqlaması ilə sinxron baş verən hərəkətlər ortaya çıxıb.

Böyük Britaniya vətəndaşı, aktiv sosial şəbəkə istifadəçisi olan Clive Dunn adlı şəxs Azərbaycanın əleyhinə məqalə paylaşıb. Şərq-müsəlman dünyası əleyhinə paylaşımları ilə tanınan və paylaşımlarının 95 faizi siyasi mövzularda olan Clive Dunn indi də bolqar jurnalist Dilyana Qaytancıyevanın müəllifi olduğu “Terrorçular üçün silah daşıyan 350 diplomatik uçuş” başlıqlı məqaləni yenidən yayımlayıb. Məqalədə iddia olunur ki, “3 il boyunca Azərbaycandan Silk Way vasitəsilə münaqişə zonalarındakı terrorçulara silah daşınıb”.

Müəllif iddia edir ki, Bolqarıstan və Azərbaycan XİN arasındakı sənədləri ona anonymous Bulgaria adlı tvitter hesabı göndərib. O, “yüzlərlə ton silah daşıyan təyyarələrin” aeroportlarda orta yerlərdə, sərnişin təyyarələrinin arasında dayandığı üçün” təhlükənin miqyasının daha da artdığını qeyd edib. Əlavə edir ki, “İri dövlətlər buna göz yumublar”. Sənədlərdə bu silahlarla bağlı razılaşmaların olduğu da qeyd edilir.

Maraqlıdır ki, bolqar jurnalist tərəfindən xeyli əvvəl yazılan, amma təkzib olunan məqalə, bu günlərdə tvitterdə Clive Dunn tərəfindən yenidən paylaşılıb və bu paylaşımdan sonra Azərbaycan barədə qondarma ittihamlar yenidən gündəmə gəlib. Ən maraqlısı isə budur ki, Clive Dunnın paylaşması ilə AXCP sədrinin “Fuad Muradovun silahlı dəstəsi” açıqlaması eyni tarixə təsadüf edir: hər ikisi 1 gün fərqlə gündəmə gəlib, eyni tezislər üzərində qurulub. Hər iki paylaşmanın motivi budur ki, Azərbaycan qanunsuz silah dövriyyəsində, qanunsuz silahlı dəstələr qurulmasında iştirak edir. Təsadüfidirmi? Təbii ki, xeyr. Uzun illərin təcrübəsi deməyə əsas verir ki, artıq anti-Azərbaycan mərkəzlər tərəfindən yeni kampaniya hazırlanır. Bu dəfə ölkəmiz silah qaçaqmalçılığında, terrorçu qruplarla əlaqədə, qanunsuz silahlı dəstələr qurmaq məsələsində ittiham oluna bilər. Allah etsin ki, ehtimalımız boşa çıxsın. Amma simptomlar eynidir.

Təqdiredici haldır ki, Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri, Prezidentin köməkçisi Əli Həsənov bu ittihamlara zamanında, operativ şəkildə cavab verdi. Əli Həsənov açıqlamasında deyir: “...Silahlı dəstələr yaratmaq, insanları silahla hədələmək, onların evlərinə basqın etmək, itaət etməyənləri döyüb avtomobilin yük yerinə salmaq və digər bu kimi hüquqazidd əməllər Əli Kərimlinin dövlət müşaviri olduğu AXC-Müsavat hakimiyyətinin üsul-idarəsi üçün xarakterik hallar olub... Bugünkü Azərbaycan hüquqi dövlətdir, burada heç bir cinayətkar cəzasız qalmır, günahı olmayan da cəza almır. Dövlətin hansısa “fədailər qrupu”na və digər bu kimi qeyri-qanuni dəstələrə ehtiyacı yoxdur, onun asayişi yaradan, qanunlara əməl olunmasını təmin edən hüquq mühafizə sistemi və ədaləti bərpa edən məhkəməsi var”.

Prezident köməkçisinin açıqlaması genişdir, çoxlu tezislər var. Onları AXCP sədri ilə yanaşı, “xaricdə oturub quyruq bulayanlara” da aid etmək olar.

# Azərbaycanın müasir neft-qaz sənayesində yeni dövrün başlanğıcı

**Kimi sənə "qara qızıl", kimi Vətənimin "şah damarı" dedi, əsrlərdir Azərbaycanımı dünyaya tanıdan, var edən təbiətin bizlərə bəxş etdiyi misilsiz nemət olan neftimiz. Ta qədimdən bəşər öz düzənini yaratmağa, təkamülləşməyə meyilli olub. Belə ki, neftin xeyrini, yaşayış üçün önəmini bilən insan onun axtarışına çıxır. Ucu-bucağı görünməyən torpaqlarla insan zəkası, hissiyyatı üz-üzə qalır.**



Torpağın dərinliklərində neft tapmaq istəyi ilə axtarışa çıxan insanın texnologiyası çox primitiv idi. Azərbaycanda 1846-cı ildən mexaniki üsulla qazılmış quyulardan neftin hasil edilməsinə başlandıqdan sonra Binəqədi, Pirallahı, Suraxanı kimi yeni neft yataqları aşkar edilir. Getdikcə neftə maraq artmağa başlayır. XIX əsrdə sənaye inqilabının baş verdiyi bir zamanda Bakının neft qoxulu küləkləri xarici sərmayədarları ölkəmizə gətirdi. Nadir bir təbiət incisi olan neftimizi hər kəs öz boynunda görmək istəyirdi. 1876-cı ildə Nobel qardaşları Bakıda neft hasilatı və emalı üzrə neft şirkəti yaratmışlar.

Xarici kapitalın ölkəmizə sürətli axını çar Rusiyasının müstəmləkəsi olan Azərbaycanda milli sahibkarlığın formalaşmasına, xalqımızın "cəhalət yuxusundan" ayılmasına səbəb oldu. Belə bir tarixi şəraitdə neft hasilatı onlarla insanın həyatı bahasına başa gəlsə də, milyonları xaricə axsa da Azərbaycan nefti dünya neft sənayesində bir çox ilklərə imza atmışdır (ilk neft quyusu, neft daşıyan paraxod, tankerlər, dəmiryol sistemlərində neftin daşınması, barjlar və s.).

1878-ci ildə 12 km uzunluğunda inşa edilmiş neft kəməri Rusiya neft sənayesində ilk neft kəməri hesab edilir. İstər çar hakimiyyəti, istərsə də Sovet İttifaqı dövründə Azərbaycan nefti Rusiya üçün əvəzsiz idi. Bircə bu faktı qeyd etmək kifayətdir ki, İkinci Dünya müharibəsi zamanı Sovetlər İttifaqı müharibə ərzində istifadə etdiyi neftin 70 faizdən çoxunu məhz Bakı neftinin hesabına ödəyirdi.

İnsanın sonsuzluğa nüfuz edən zəkası neftin dənizin dibindən çıxarılmasına səbəb oldu. Dünyada ilk dəfə açıq dənizdən neftin hasilatına başlanması möcüzəvi "Neft Daşları" ilə bağlıdır. 1949-cu ildə Xəzərin sahillərindən 40 km məsafədə açıq dənizdə aşkar olunmuş yataq neft-qaz sənayesinin inkişafında dəniz yataqlarının mənimsənilməsinin başlanğıcını qoydu.

Taxta çəlləklərin ləmbər vurub dağıtdığı neftli yolları tarix öz toz dumanında yox etdi. Arabaların cır-cır səslə getdiyi cığırları neft kəmərləri əvəz etdi. Kim bilərdi ki, sonralar bu kəmərlər uzanaraq dünyanın dörd bir bucağına Azərbaycan neftini daşıyacaq.

Təbiətin xalqımıza bəxş etdiyi neft, təbii qaz hər zaman bu xalqın çətinliklərdən qurtuluşu olub. Müstəqillik qazandıqdan sonra ölkəmiz ağır siyasi, iqtisadi böhranla üz-üzə qalmışdı. Digər tərəfdən, xain ermənilər tərəfindən torpaqlarımızda elan olunmamış müharibənin baş verməsi, on minlərlə insanın öz doğma yurd-yuvalarından didərgin düşməsi Azərbaycanda iqtisadi vəziyyəti daha da ağırlaşdırdı. Belə bir çətin tarixi şəraitdə ulu öndər Heydər Əliyev 1994-cü il sentyabrın 20-də dünyanın məşhur neft şirkətləri ilə "Əsrin müqaviləsi" kimi tanıdığımız, müstəqillik tariximizə qızıl hərflərlə yazılan sazişə imza atdı. Təbiətlə insan zəkasının vəhdətindən yaranan, dövlətini, xalqını uğurlu gələcəyə aparan, onun xoş güzəranına təminat verən möhtəşəm bir layihə. Bu müqavilə ilə müstəqil Azərbaycan dünya dövlətləri içərisində öz varlığını təsdiqlədi. "Əsrin müqaviləsi" Azərbaycanın müasir neft-qaz sənayesində yeni dövrün başlanğıcı oldu. Bu müqavilə Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarının tam miqyaslı işlənməsini əhatə etdi. "Əsrin müqaviləsi" layihəsinə uğurla başlayan və artıq 25 ildir müvəffəqiyyətlə davam etdirən Azərbaycan dövləti artıq dünyada neft ixrac edən ölkə kimi öz sözünü deyib. Dünya bazarına çıxarılan neftin nəqli üçün 1997-ci ildə Bakı-Novorossiysk,1999-cu ildə isə Bakı-Supsa neft boru kəmərləri istifadəyə verilmişdir. Azərbaycanın neft nəqli sisteminin "şah əsəri" sayılan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməridir. 2006-cı ildə gerçəkləşən bu möhtəşəm layihə Azərbaycan neftinin dünya bazarına təhlükəsiz və fasiləsiz ixracını təmin edir.

Ümummilli lider Heydər Əliyev siyasətini layiqincə davam etdirən möhtəm Prezidentimiz İlham Əliyevin uğurlu siyasəti sayəsində neft-qaz strategiyasında yeni dövr başlandı. Bu gün Azərbaycan həm də dünyada böyük miqdarda qaz ixrac edən, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan bir ölkə kimi tanınır. 1999-cu ildə kəşf edilmiş "Şahdəniz" yatağı dünya dənizlərində bu günə kimi aşkar edilmiş ən böyük qaz yataqlarından biridir.

Avropaya səs salan Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri(TAP) layihələrinin həyata keçirilməsi ilə Azərbaycan bir daha qaz ixrac edən ölkə kimi özünü təsdiqlədi.

Müstəqil Azərbaycanın neft-qaz sənayesi tarixində baş vermiş və bundan sonra həyata keçiriləcək bütün layihələrə mayak olan 30 illik müddətə imzalanmış "Əsrin müqaviləsi"nin vaxtı 2017-ci il sentyabrın 14-də imzalanmış yeni sazişlə 2050-ci ilədək uzadıldı. Yenilik sayəsində Azərbaycanın AÇG şirkətinin mövcud layihə üzrə payı 11,6%-dən 25%-ə artırılır. Yataqlardan hasil edilən səmt qazı bütünlüklə Azərbaycana qalacaq, tərəfdar şirkətlər isə Azərbaycan dövlətinə 3,6 mlrd. dollar həcmində bonus ödəyəcəklər. Bütün bunlar ölkəmizin gələcək rifahından xəbər verir.

Bu gün Türkiyə, Gürcüstan, Almaniya, İsveçrə, Ruminiya, Ukrayna kimi dövlətlərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) nümayəndəlikləri fəaliyyət göstərir. "SOCAR" markası Azərbaycanın brendi kimi bir çox ölkələrin petrol siyasətində mühüm rol oynayır.

**Gülnar Zeynalova,**
SOCAR-ın Sosial İnkişaf İdarəsinin arxiv müdiri

## *Rauf Əliyev:* Paşinyanın bəyanatları danışıqlar prosesinə ciddi zərbədir



"İndiyə qədər Ermənistan tərəfi hərbi işğal və anneksiya siyasətinin beynəlxalq siyasi-hüquqi və mənəvi məsuliyyətini dərk edərək işğalçılıq siyasətini gizlədir və onu Dağlıq Qarabağın erməni əhalisinin öz müqəddəratını təyin etmək formasında pərdələməyə çalışır, müxtəlif bəhanələrə əl atırdı. N.Paşinyan və Ermənistanın digər yüksək vəzifəli şəxslərinin məlum bəyanatları bütövlükdə Ermənistanın dövlət səviyyəsində işğalçılıq siyasəti yürütməsinin və buna görə Ermənistanın beynəlxalq hüquqi məsuliyyət daşımasının sübutudur". **Bu fikri Milli Məclisin deputatı Rauf Əliyev deyib.**

R.Əliyev bildirib ki, Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaqına çağırış ilə Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini, BMT Nizamnaməsini, Helsinki Yekun Aktını ayaq altına atır və beynəlxalq ictimaiyyətə, xüsusilə münaqişənin danışıqlar yolu ilə həllinə məsul olan ATƏT-in Minsk qrupunun həmsədrlərinə total hörmətsizlik nümayiş etdirir. Onun sözlərinə görə, Ermənistan ATƏT-in Minsk qrupunun vasitəçiliyi altında ciddi danışıqlar aparmaq əvəzinə, bütün mümkün vasitələrlə danışıqlar prosesini bloklayır, münaqişənin həllindən yayınır və işğalı, etnik təmizləmənin nəticələrini davam etdirmək, status-kvonu saxlamaq üçün vaxt qazanmağa çalışır: "Paşinyanın bəyanatı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçilik etdiyi danışıqlar prosesinə ciddi zərbədir. Bundan sonra danışıqlar prosesinin gələcəyi barədə suala ATƏT-in Minsk qrupunun həmsədrləri cavab verməlidirlər"-deyə, R.Əliyev vurğulayıb.

## *Pərvin Kərimzadə:* Ulu Öndərin möhtəşəm dönüşü Naxçıvandan başladı

Azərbaycanın intibahı və milli şüurun oyanışı ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlayıb, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter alıb. Xalqımız hər zaman öz böyük oğlunun misilsiz xidmətlərini minnətdarlıq duyğuları ilə anır, xüsusi ilə qeyd edir ki, ölkəmiz dünyada layiq olduğu mərtəbəyə ümummilli lider Heydər Əliyevin müdrikliyi, qətiyyəti, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilib.

Hələ Ulu Öndər ölkəmizə rəhbərliyinin birinci dövründə sovet dövrünün bütün ideoloji-siyasi manеələrinə sinə gərərək, Azərbaycan xalqının milli inkişaf konsepsiyasını irəli sürüb, ictimai şüurlardakı qorxunu aradan qaldıraraq müasir tariximizin ən şanlı və parlaq salnaməsini yazıb. Dahi şəxsiyyət müdrik, uzaqgörən fəaliyyəti ilə inqilabi dəyişiklik yaradaraq ölkəmizin çoxəsrlik dövlətçilik tarixində milli özünüdərkin oyanması, soykökə qayıdışın başlanğıc dövrünün bünövrəsini qoyub. Ulu öndər Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən fövqəladə sessiyada deputatların və iclas zalının qarşısına toplaşan minlərlə insanın təkidi ilə Ali Məclisin Sədri seçilməsi isə Azərbaycanın müstəqillik yolunun əsasını yaratdı.

Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Naxçıvandan başlanan dövlət müstəqilliyinin bütün Azərbaycan üçün aparıcı ideologiyaya çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına səbəb oldu. Həmin vaxtlar Naxçıvan parlamentinin yeni tərkibdə keçirilən sessiyalarında gündəliyə çıxarılan məsələlər və qəbul edilən tarixi qərarlar Azərbaycanın müstəqilliyinə və suverenliyinə hesablanırdı. Ulu Öndərin təklifi ilə "sovet sosialist" sözlərinin muxtar respublikanın adından çıxarılması, ilk dəfə olaraq Naxçıvanda Azərbaycan Xalq



Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi qəbul edilməsi, Azərbaycan dövlətinin bu bayrağı rəsmi dövlət bayrağı kimi təsdiq etməsi üçün Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırılması müstəqillik tariximizin ən parlaq səhifələrini təşkil edir.

Ömrünün hər anı ilə siyasi təqvimimizdə özünəməxsus yeri olan dahi şəxsiyyətin təkidi və iradəsi ilə 1991-ci ildə Naxçıvan Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendumda iştirak etmədi. Ulu Öndərin Ali Məclisin Sədri vəzifəsində işləyərkən 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul edilməsi dünya azərbaycanlılarını bir ideya ətrafında - Vətənə və xalqa xidmət uğrunda birləşməyə səslədi. 1992-ci il noyabrın 21-də isə respublikanın müxtəlif bölgələrindən gələn 550-dən artıq nümayəndənin iştirakı ilə bu günün hakim partiyası - Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Bu addımlar Ulu Öndərin qətiyyət, cəsarət, öz xalqına, öz millətinə nə qədər bağlı olduğunu bir daha sübut etdi.

Beləliklə, Ulu Öndərin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik olan tarixi hadisə, eyni zamanda, təcrübəli bir dövlət xadiminin dövlət idarəçiliyinə möhtəşəm dönüşü oldu.

# İrəvan Moskvanı şantaj edir



**Ermənistanda anti-Rusiya kampaniyası getdikcə daha kəskin xarakter alır. İşğalçı ölkənin siyasi dairələri ilə yanaşı, mediası da Rusiya Prezidenti Vladimir Putinin hələlik kölgəsini qılınclamaqla məşğuldurlar. Ermənilər, bir sözlə, Rusiyaya və bu ölkənin rəhbərliyinə yönəlmiş nifrətlərini gizlətmirlər. Ermənistanın əsas siyasi ruporlarından biri olan "1in.am" saytında bu mövzuda maraqlı, həm də Putinin oxuması vacib bilinən məqalə dərc olunub.**

Belə ki, saytın araşdırmaçı yazarı Sarqis Arçruni məqaləsində Ermənistanın baş nazirinin son müsahibəsindən sitat gətirir: "...Sualın bu formada yazılması Rusiyanın Ermənistana şübhə etmək üçün qanuni bir hüquqa sahib olduğunu göstərir və biz bunu etmirik. Rusiya həmişə şübhə etmək hüququna sahib idi və biz həmişə şübhəli şəxsin mövqeyində idik. Və niyə heç kim Ermənistan-Rusiya münasibətlərində qarşılıqlı şübhələrin olub-olmadığını öyrənmək fikrində deyil? Məsələn, Rusiya Azərbaycana silah satanda bu şübhə doğurur, ya yox? Demək istəyirəm ki, köhnə komplekslərimizdən yaxa qurtarmalıyıq: biz suveren tərəfdaşlarıq və onların bizə şübhə etmək hüququ varsa, şübhə etmək hüququmuz da var. Ümumiyyətlə, hesab edirəm ki, bu vacib əsasda münasibətlərimiz davamlı inkişaf etməlidir. Hər kəsin ləyaqətinə hörmət edən münasibətlər qurmalıyıq. Əminəm ki, bu gün münasibətlərimiz bu ləyaqətlə qeyd olunacaqdır. Hər kəsin bizə necə şübhə edə biləcəyinə şübhə ilə yanaşdığımız qədər haqlıyıq. Kimsə tərəfdaş kimi öhdəliklərimizi yetərincə səviyyədə yerinə yetirmədiyimizə inanırsa, bizə də bunu etməyə icazə verilir. Heç kim şübhələrin aradan qaldırılmasının yalnız gündəliyimizin bir hissəsi olduğunu düşünməsin" deyən Nikol Paşinyan "Nouvel de Armeni" nəşrinin mövzusuna müraciət etdi: "Düşünürsünüz ki, məxməri inqilabdan sonra strateji müttəfiqimiz olan Rusiyadan yarana biləcək şübhələri aradan qaldırmaq mümkün idimi? Ermənistan Rusiyanın strateji müttəfiqi olmağa davam edirmi və ya əksinə?".

Müəllif qeyd edir ki, bu fraqment Nikol Paşinyanın müsahibəsində ən vacib, əsas hissədir: "Ermənistan-Rusiya münasibətlərində Paşinyan suverenliyə dair konkret mesajlarla Moskvaya müraciət edərək məhdudiyyəti aşırmış kimi görünür. Bu, əlbəttə müsbətdir. Əlbəttə ki, müsahibə səviyyəsində bir bəyanat hərtərəfli qiymətləndirmə vermək və geniş nəticə çıxarmaq üçün kifayət deyil. Ancaq bu gün baş verən bir hadisə və sonrakı cavablar təkcə Moskvada deyil, həm də Ermənistanın siyasi həyatının müəyyən bir seqmentində Ermənistan-Rusiya münasibətlərinin yeni keyfiyyətinə hazır olmadıqlarını göstərir".

Arçruni yazısında qeyd edir ki, Paşinyanın bugünkü əleyhdarları Ermənistan-Rusiya münasibətlərini vassal rejimdə təmsil edirlər, bu zaman Moskva üçün hər şey mümkündür düşünürlər və İrəvanın həmişə "kiçik qardaş" statusunda hərəkət etməli olduğunu hesab edirlər: "Yaşlı nəsil unudur ki, Moskva ilk olaraq müttəfiq münasibətlərin ruhunu pozdu, kriminal oliqarxiyanın görkəmli nümayəndəsi Migran Poghosyan üçün bir dam oldu və martın 1-də bu işdə iştirak edən iki vacib şəxsi qorudu".

Müəllif qeyd edir ki, 2019-cu ildə İrəvandan siyasi mühacir kimi sığınacaq istəmiş rusiyalı fəal, "Rus marşı"nın təşkilatçısı Vitali Şişkin məsələsində həlledici ləyaqətli şəkildə davrandı, Moskvaya adekvat cavab verdi. Lakin o da bəllidir ki, köhnə sistemin nümayəndələri Paşinyanı bu hərəkəti ilə Rusiya-Ermənistan münasibətlərinə öldürücü zərbə vurduğuna görə qınadılar.

**Zamin Məmmədov,**
***"İki sahil"***

# ƏLİ KƏRİMLİYƏ XATIRLATMA:
# Zaman hakimliyini, tarix yaddaşını itirməyib

Düşmən dəyirmanına su tökməyi özləri üçün əsas fəaliyyət istiqaməti seçən daxili bədxahlarımızın məqsədi özlərinə "sirr", hər kəsə isə məlum olan son canfəşanlıqları vətəndaşlıq təəssübkeşliyi olan hər kəsi fikirlərini açıqlamağa, onların qaranlıq keçmişini vərəqləməyə sövq edir. Ermənilərin və ermənipərəst dairələrin ssenarilərinin icraçısı qismində çıxış edən əli kərimlilər, cəmil həsənlilər, rüstəm ibrahimbəyovlar, əkrəm naibovlar,... xalqın adından danışanda, yaxud tarixi saxtalaşdırıb ermənilərə, yaxud müstəqilliyimizin ilk illərinin yarıtmaz iqtidarının əməllərinə haqq qazandıranda heç olmasa vicdan deyilən bir məfhumun olduğunu xatırlayırlarmı? Əsla yox. Çünki bu əli kərimlilər birilllik hakimiyyətləri dövründə ölkəni, xalqı hansı duruma saldıqlarından utanıb, özlərində cəsarət taparaq bu günə qədər siyasi meydandan uzaqlaşmayıblarsa, artıq onlar üçün etdikləri hər bir hərəkət, atdıqları hər bir addım qəbulolunandır. Əbəs yerə deyilmir ki, "utanmasan, oynamağa nə var ki". Azərbaycanın 7 rayonunun ulu öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra işğal edildiyini iddia edən bir şəxsin nə qədər simasız, mənəviyyatsız olduğunu təsəvvür etmək belə mümkün deyil. Belə əsassız fikirlərlə siyasi meydanın güncünə sıxılan Əli Kərimli görəsən tarixin yaddaş olduğunu niyə unudur? Öncə birillik hakimiyyətləri dövründə ölkəni hansı vəziyyətə saldıqlarını, sonra da həmin rayonların işğal tarixlərinə diqqət yetirsin. Həmin illərdə ölkəni "olum, yaxud ölüm" dilemması qarşısında qoyan bu ünsürlərin yarıtmaz siyasətinin nəticəsi idi ki, Silahlı Qüvvələrimiz torpaqlarımızın deyil, ayrı-ayrı qrupların maraqlarının müdafiəsinə xidmət edirdi. Ölkəni uçuruma aparan əli kərimlilər o illəri unutsalar da xalq unutmayıb, ən əsası zaman hakimliyini, tarix isə yaddaşını itirməyib.

Dağıdıcı ünsürlər həmin illərdə yaşadıqları təlaşı da yadlarına salsınlar. Vətəndaş qarşıdurmasının tüğyan etdiyi bir zamanda xalqının səsinə səs verən ulu öndər Heydər Əliyev idarəçilik təcrübəsindən bəhrələnərək ölkəni düşdüyü ağır vəziyyətdən xilas etdi. Bu, tarixdir.

Bu ünsürlərin belə ikrah doğuran fikirləri artıq heç kəsdə təəccüb doğurmur. Xarici sifariş əsasında formalaşan "birlik"ləri, cızılan "yeni-yeni" ssenariləri şəxsi ambisiyalara xidmət etdiyindən aydın məsələdir ki, dövlətin, xalqın mənafeyi, milli maraqlar arxa plana keçəcək, hər bir uğur qara rəngdə ictimaiyyətə təqdim olunacaq. Amma bir əsas məqamı unudurlar ki, özləri xalqı yalan vədlərinə inandırıb, hakimiyyəti bir illik ələ keçirdikləri dövrün hissləri ilə yaşasalar da, xalq həmin dövrdəki xalq deyil, ağı qaradan seçməklə yanaşı, hadisələrə obyektiv dəyər verməyi də çox yaxşı bacarır. Hər halda dağıdıcılar ictimai fikirdə özləri barədə formalaşdırdıqları xəyanətkarlar imicinin hansı səbəbdən yarandığını da çox yaxşı anlayırlar. Zaman-zaman ölkə ictimaiyyəti bu qüvvələrin xarici himayədarlarının tapşırığına uyğun olaraq kütləvi aksiya adı altında küçələrə çıxıb, ictimai-siyasi sabitliyi pozmaq, qarşıdurma yaratmaq, görüntüləri məqsədli şəkildə tabeliklərində olan qəzetlərin üz qabığına çıxarmaq, yaxud beynəlxalq təşkilatlara göndərmək kimi cəhdlərinin şahidi olub. Bu cəhdlər isə daim Azərbaycanın uğurları, ən əsası xalq-iqtidar birliyinin sarsılmazlığı, möhkəmliyi fonunda uğursuzluğa düçar olub. "Milli Şura"nın da hansı qüvvələrin layihəsi olduğu bəllidir. "Qarabağa azadlıq" kimi saxta vətənpərvərliklərindən qaynaqlanan çağırışları, bu mövzuda keçirdikləri aksiyalar da onların kimliyinə işıq salır.

Ölkəmizin mühüm hadisə - bələdiyyə seçkiləri ərəfəsində olduğunu nəzərə alsaq bu gün dağıdıcıların apardıqları qərəzli təbliğatın arxasında hansı maraqların dayandığı daha aydın görünər. Əli Kərimlinin, Cəmil Həsənlinin Dağlıq Qarabağ problemindən tez-tez bəhs etmələri də səbəbsiz deyil. Görünür, neçə illərdən sonra yuxudan ayılaraq ölkəmizin belə mühüm, ağrılı probleminin mövcudluğundan xəbər tuturlar. Ə.Kərimli "Daş yuxular"a görə Ə.Naibova, "Qafqaz üçlüyü"nə görə R.İbrahimbəyova dəstək olanda məgər Dağlıq Qarabağ problemi yox idi? Əlilər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin dünyaya çatdırılması istiqamətində indiyə qədər hansı addımı atıblar? Məqsədli addımları ilə daim özlərini qınaq hədəfinə çevirən bu ünsürlər unudurlar ki, hansısa gedişlərlə özlərinin məkrli niyyətlərini ört-basdır edə bilməzlər. Bu və ya digər sifarişlərə görə xarici dairələrdən pul qoparan



dağıdıcı ünsürlər bir əsas məqamı da yaxşı dərk edirlər ki, yalanın həqiqət üzərində qələbəsi qeyri-mümkündür.

Bu gün əli kərimlilərə çox da uzaq olmayan bir tarixdə Silahlı Qüvvələr Günündə keçirilən paraddan sonra yazdıqlarını və söylədiklərini xatırlamağı tövsiyə edərdik. Ə.Kərimli "Azərbaycana hərbi parad lazımdırmı" sərlövhəsi altında sosial şəbəkələrdə özünə tərəfdar toplamağa çalışanda məgər Dağlıq Qarabağ problemi mövcud deyildi? Hərbi paradın keçirilməsi ilə bağlı bu ünsürlərin yaratdıqları ölkəmizin "Eurovision" mahnı yarışmasına ev sahibliyi etdiyi dövrü xatırlatmaq məcburiyyətində qoydu. O zaman isə bu ünsürlər belə bir fikri səsləndirirdilər: "Azərbaycan xalqına "Eurovision" mahnı yarışması yox, Dağlıq Qarabağ lazımdır". Görəsən, dağıdıcılar Azərbaycanın hansı uğurunu ürəkaçıqlığı ilə qəbul edəcəklər? "Azərbaycan xalqına Dağlıq Qarabağ lazımdır" deyib, ictimai fikirdə özləri barədə vətənpərvər obraz yaratmağa çalışan bu ünsürlər üçün görəsən hərbi paradın keçirilməsi hansı səbəbdən lazım olmaya bilərdi?

Bu gün Dağlıq Qarabağdan bəhs edən ünsürləri müstəqilliyin, dövlətçiliyin qarantı olan ordunun hansı imkanlara malik olmasını nümayiş etdirən hərbi parad nə üçün narahat edirdi? Görünür, bu ünsürlər Azərbaycan Ordusunun işğalçı Ermənistanın silahlı qüvvələrindən güclü, qüdrətli olmasından məyus olduqları üçün belə bir sual ətrafında müzakirələr aparıb, ictimai fikirdə çaşqınlıq yaratmaq istədilər. Tez-tez "Müharibə, yoxsa sülh" adı altında çağırışlarını xatırlamaq kifayətdir. İctimai fikirdə belə rəy yaratmağa çalışırdılar ki, guya ordumuzun zəifliyi Azərbaycan hakimiyyətində qorxu hissi yaratdığı üçün sülh danışıqlarına üstünlük verilir. Dövlətimizin başçısı İlham Əliyevin hər bir çıxışında istər işğalçı Ermənistanı, istərsə də onlara havadarlıq edən xarici dairələri ciddi düşündürən bəyanatlar səsləndirilir. Azərbaycanın bir qarış torpağının belə düşmənə verilməyəcəyinin, lazım gələrsə hərb yolunun seçiləcəyinin ən yüksək tribunalardan bəyan edilməsi rəsmi Bakının mövqeyinin dəyişməzliyini, real faktlara və ədalətə əsaslandığını təsdiqləyir.

Vətənə, xalqa xəyanət yolu tutmaq nə zamandan vətənpərvərlik olub? Ermənilər qarşısında öhdəlik götürüb, hakimiyyətə gələrlərsə, Dağlıq Qarabağı onlara bəxşiş edəcəklərini bildirən, eyni zamanda, problemin həllində Azərbaycanı manea kimi qeyd edib, ermənilərin ünvanına "bəy tərifi" söyləyən əli kərimlilərdən ədalətli mövqe, əməllərinin etirafını gözləmək sadəlövhlük olar. Yalan, əsassız təbliğatları ilə ictimai fikri çaşdırmaq yolu tutan bu ünsürlər mütəmadi olaraq özləri barədə böyük görüntü yaratmaq üçün fərziyyələrini reallıq kimi təqdim etmək istiqamətində cidd-cəhdlər göstərirlər. Reallıq budur ki, onların siyasi meydanı Azərbaycan hakimiyyətinin gördüyü işlərin fonunda daralıb. Xalq əli kərimliləri birillik hakimiyyətləri dövründə tarixin zibilxanasına atıb.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

# Əhalinin sosial müdafiəsinin gücləndirilməsində yeni mərhələ

## Sentyabrın 1-dən on minlərlə insanın əməkhaqqında yüksək artımlar reallaşdı




Prezident İlham Əliyevin sərəncamları ilə güc strukturlarında çalışan əməkdaşların maaşları sentyabrın 1-dən artırılıb. Sərəncamlara əsasən, Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla), Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının, Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla), Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin xüsusi rütbəsi olan əməkdaşlarının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılıb. Həmçinin Müdafiə Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılıb.

Bundan başqa, Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla), Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla), Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla), Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatı da vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində qaldırılıb.

Həmçinin ölkə başçısının “Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında” Sərəncamına əsasən sentyabrın 1-dən dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin aylıq vəzifə maaşları 20 faiz artırılıb. Bir sözlə, sentyabrın 1-dən yüz minlərlə insanın əməkhaqqı ciddi şəkildə artırılıb ki, bu da həmin ölkə vətəndaşlarına sosial rifah gətirəcək çox mühüm amildir.

Ümumiyyətlə, Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşının firavan yaşam tərzi dayanır. Məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən dövr ərzində əhalinin sosial rifahının yüksəldilməsi və sosial infrastrukturun ən müasir standartlara uyğun yenidən qurulması istiqamətində məqsədyönlü siyasət həyata keçirilmiş və mühüm uğurlar əldə olunmuşdur. Xüsusən sosial məsələlərin həlli ilə bağlı ölkədə çoxsaylı Dövlət proqramları, böyük layihələr həyata keçirilmişdir. Regionların sosial-iqtisadi inkişafına dair üç Dövlət Proqramı, həmin sənədlərə çoxsaylı əlavələr qəbul olunmuş və icra edilmişdir. Çox önəmli faktdır ki, hər il ölkəmizin başçısının imzaladığı Fərman və sərəncamların 70 faizi məhz sosialyönümlüdür.

Son 16 ildə hər il yeni iş yerlərinin açılması, yeni istehsalat müəssisələrinin, emal zavodlarının yaradılması artıq bir ənənə halını almışdır. Belə ki, bu dövr ərzində işsizlik və yoxsulluq 49 faizdən 4,9 faizə düşmüşdür. Ölkədə minlərlə yeni müəssisə yaradılmaqla 1.9 milyondan artıq yeni iş yeri açılmışdır. 3 mindən çox məktəb, altı yüzdən çox tibb ocağı tikilmiş və ya əsaslı şəkildə təmir edilmişdir.

Bölgələrdə 40-dan çox Olimpiya İdman Kompleksi, sosial və mədəniyyət obyektləri inşa edilmişdir. 2400 meqavat istehsal gücü olan 30-dək elektrik stansiyası tikilməklə ölkənin enerji təhlükəsizliyi tam təmin edilmişdir. Qazlaşdırma 51 faiz səviyyəsindən 95 faizə çatdırılmış, ölkə ərazisi, hətta sovet dövründə qaz verilməyən yaşayış məntəqələri qazlaşdırılmışdır. MDB məkanında yeni yolların ən çox çəkilişinə görə də öndəyik. Son bir neçə ildə 13 min kilometrdən çox avtomobil yolu tikilmiş, təkcə magistral və şəhərlərarası yollar deyil, həmçinin kəndlərarası yollar ən qabaqcıl standartlar səviyyəsində yenidən qurulmuşdur. Regionlardan Bakıya yeni su xətti çəkilmiş, paytaxtın fasiləsiz su təminatı 80 faizə çatmışdır. Regionlarda modul tipli sutəmizləyici qurğular quraşdırılmış, əhalinin içməli su ilə təminatı yaxşılaşdırılmışdır.

Prezident İlham Əliyevin ölkə əhalisinin sosial rifahının yüksəldilməsinə dair həyata keçirdiyi işlərin miqyası gündən- günə genişlənir. Dövlət başçısının cari ildə imzaladığı sosialyönümlü sərəncam və fərmanlarla müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin 80 manat məbləğində təqaüdü təsis olunmuşdur. Digər müharibə əlilləri və onlara bərabər tutulan şəxslər üçün Prezident təqaüdünün məbləği I qrup əlilliyə görə 182 manatdan 250 manata, onlara qulluq edənlərə isə 50 manat, II qrup əlilliyə görə 158 manatdan 230 manata, III qrup əlilliyə görə, 121 manatdan 210 manata çatdırılmışdır.

Beləliklə, əgər I qrup müharibə əlilləri və onlara bərabər tutulan şəxslər 150 manat sosial müavinət alırdılarsa, bundan sonra həmin məbləğin üzərinə 250 manat Prezident təqaüdü və 50 manat da onlara qulluq edən şəxsin məvacibi daxil ediləcək. Yəni bu kateqoriyaya aid şəxslər ayda ümumilikdə 450 manat alacaqlar. II qrupa aid olanların (130 + 230) 360, III qrupa aid olanların isə (110+ 210) alacaqları müavinət 320 manata yüksəlib.

Əslində, Prezident İlham Əliyevin son 8 ayda böyük sosial islahatlar paketi çərçivəsində imzaladığı sərəncamlar, sosial sahədə qəbul olunmuş qərarlar miqyasına, əhatə dairəsinə görə inqilabi qərarlardır.

Ekspertlərin qənaətinə görə, 2019-cu ilin 8 ayında elə bir sahə yoxdur ki, maaşlarda, eləcə də sosial müavinətlər və təqaüdlərdə artımlar edilməsin. Prezident İlham Əliyev ilk növbədə qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin durumunu diqqətdə saxlamaqla bu kateqoriyaya aid insanlara öz dəstəyini göstərdi. Şəhid ailələrinə istisnasız olaraq birdəfəlik müavinətlərin verilməsi, bu kateqoriyaya aid insanlara müavinətin 242 manatdan 300 manata, həmçinin Əfqanıstan müharibəsi veteranlarının müavinətinin 220 manatdan 300 manata yüksəldilməsi, məcburi köçkünlərə verilən aylıq müavinətlərin 50 faiz qaldırılması bunun əyani təzahürüdür.

Eyni zamanda, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2019-cu ilin əvvəllərindən başlayaraq minimum əməkhaqqının 38 faiz artılaraq 130 manatdan 180 manata çatdırılması, minimum pensiyaların 38 faiz artırılaraq 116 manatdan 160 manata qədər qaldırılması, 100 minə yaxın tələbənin təqaüdünün yüksəldilməsi əhali tərəfindən rəğbətlə qarşılanıb.

Bir sözlə, ölkəmizin başçısının da vurğuladığı kimi, əgər 2017-ci il iqtisadi sabitləşmə, 2018-ci il isə dərin iqtisadi islahatlar ili olubsa, 2019-cu il həm sosial islahatlar ili, həm də iqtisadi artımın yüksək templərlə təmin ediləcəyi dövr kimi tarixə düşəcəkdir.

**Elçin Zaman,**
***“İki sahil”***

## BİRİNCİ SİNİF ŞAGİRDLƏRİ MƏKTƏB LƏVAZİMATLARI İLƏ TƏMİN OLUNACAQ



Heydər Əliyev Fondunun təşəbbüsü ilə aztəminatlı ailələrin 2019-2020-ci tədris ilində birinci sinfə gedən övladlarına məktəb ləvazimatlarından ibarət hədiyyələr veriləcək.

AZƏRTAC xəbər verir ki, hədiyyələr ünvanlı sosial yardım alan ailələrin birinci sinif şagirdləri üçün nəzərdə tutulub.

Heydər Əliyev Fondunun sifarişi ilə aztəminatlı ailələr üçün hazırlanan hədiyyə dəsti çanta və gündəlik məktəb ləvazimatlarından ibarətdir və onlar sentyabrın 15-dək qeyd olunan birinci sinif şagirdlərinə çatdırılacaq.

Qeyd edək ki, Fond “Təhsilə dəstək” layihəsi çərçivəsində hər il aztəminatlı ailələrin birinci sinif şagirdlərinə çanta və müxtəlif məktəb ləvazimatları hədiyyə edir.

## NİDERLAND BAKI-TBİLİSİ-QARS DƏHLİZİNƏ QOŞULMAQDA MARAQLIDIR



Niderland Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinə qoşulmağa maraq göstərir.

Bunu Trend-ə Niderland Xarici İşlər Nazirliyindən bildiriblər.

Nazirlikdən deyiblər ki, BTQ-nin açılışı iqtisadi perspektivləri olan vacib hadisədir: “Azərbaycan tarixən Şərqlə Qərb arasında körpü olub və bu dəmir yolu Avropa ilə Asiya arasında vacib halqa ola bilər. Niderlandın layihəyə rəsmən qoşulması az ehtimal olunsa da, ölkədə bu dəmir yoluna qoşulmaq və Asiyaya, eləcə də əks istiqamətdə məhsulların nəqli üçün aşkar maraq var. Artıq Niderlandın “Cabooter Group” və Ələt limanı arasında yüklərin daşınması üzrə müqavilələr imzalanıb”.

Bundan başqa, nazirlikdən bildiriblər ki, Niderlandda liman sənayesində ikitərəfli əməkdaşlığın inkişafına maraq var: “Rotterdam limanının nümayəndələri 2018-ci ildə Bakıda Ümumdünya Limanlar konfransında iştirak edib. Ələt limanının potensialını, eləcə də Rotterdam limanının təcrübəsini nəzərə alaraq, demək olar ki, bu sahədə əməkdaşlıq üçün böyük perspektivlər var”.

## OPEK-in İXRAC GÖSTƏRİCİLƏRİ YÜKSƏLİB



OPEK-in neft ixracı son dörd ayda ən yüksək həddə çatıb. Məlumatı “Bloomberg” agentliyi yayıb.

OPEK-in başlıca hasilatçıları İran, İraq, Küveyt, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) avqust ayında orta hesabla günə 15,73 milyon barrel neft ixrac ediblər ki, bu da iyul ayının ixrac göstəricisindən 736 min barrel yüksəkdir.

Səudiyyə Ərəbistanı və BƏƏ-nin xam neft və kondensat ixracı günə 300 min barrel, İraqın gündəlik ixrac göstəricisi 150 min barrel, İranınkı isə 65 min barrel artıb.

Xatırladaq ki, ixracda artıma baxmayaraq, OPEK hələ də hasilat kvotasını aşağı salmaq planını həyata keçirməyə çalışır.

OPEK-in avqust ayı üçün gündəlik orta hasilat göstəricisi 29,61 milyon barrel təşkil edib.

## “NOVATEK” YAMALDA YENİ YATAQ ƏLDƏ EDİB



Mayeləşdirilmiş təbii qaz hasilatını yüksəltməyə çalışan Rusiyanın “Novatek” müstəqil qaz hasilatı şirkəti hərracda qalib olaraq, Yamal-Nenets muxtar regionunda, Gidan yarımadasında “SoletskoXanaveyskoye” yatağında geoloji tədqiqatlar, kəşfiyyat və hasilat aparmaq üçün lisenziya əldə edib.

“Novatek” açıqlayıb ki, lisenziya ərazisində 2,183 milyard kubmetr qaz və 16 milyard barrel neft ekvivalenti həcmində karbohidrogen ehtiyatı olduğu proqnozlaşdırılır.

Şirkətə lisenziya 27 illik müddətə verilib.

# Əli Kərimli, sizləri Surət Hüseynovun dar ağacından kimin qurtardığını nə tez unutdunuz?



**Son vaxtlar dağıdıcı müxalifət düşərgəsinin başbilənlərindən olan AXCP sədri Əli Kərimli yenə öz xislətinə sadiq qalaraq sosial şəbəkələrdə yaxın tariximizi (xüsusilə 1992-1993-cü illər) cidd-cəhdlə saxtalaşdırmağa çalışsa da heç nəyə nail ola bilmir.**

Hamımız yaxşı xatırlayırıq ki, 1992-ci ildə Azərbaycanda silah gücünə iqtidara gələn AXC-Müsavat cütlüyü hakimiyyətdə olduğu bir il ərzində ölkəni tamamilə uçuruma sürükləmişdi. Dövlət çevrilişi yolu ilə hakimiyyətə gələn bu qüvvələrin respublikanın idarəçiliyini zəbt etməsindən sonra ölkə "ölüm-qalım" dilemması qarşısında qalmışdı. Təbii ki, AXC-Müsavat cütlüyünün Bakıda hakimiyyəti silahlı yolla ələ keçirmək üçün Qarabağın müdafiəsində dayanan əsgərləri silahları və zirehli texnikaları ilə birgə Ali Sovetin ətrafına yığdığını da heç kim unutmayıb.

AXCP sədri Əli Kərimlinin ən yüksək vəzifələrdən birini tutduğu bu komandanın birillik hakimiyyəti dövründə ölkədə anarxiya, xaos, hərc-mərclik baş alıb gedirdi. Qanunsuz silahlı dəstələr, quldur dəstələri meydan sulayırdılar. Respublikanın rəhbərliyindəki siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan, diletant şəxslərin səriştəsizliyi nəticəsində Azərbaycan iqtisadi böhranın məngənəsində boğulur, ölkə parçalanırdı.

Ən dəhşətlisi isə odur ki, məhz həmin illərdə torpaqlarımızın Ermənistan tərəfindən işğalı həyata keçirildi. Bərbad xarici siyasət nəticəsində xarici dövlətlər beynəlxalq münasibətlər sistemində Azərbaycanı müstəqil subyekt kimi qəbul etmirdilər. Bu başabəla iqtidarın savadsız, səbatsız kadrlarının "İranı viran etmək", "Rusiyanı parçalamaq", "Çinə türk bayraqları sancmaq" kimi bəyanatları region ölkələri ilə münasibətləri həddindən artıq gərginləşdirmişdi. Artıq hamıya bəlli idi ki, AXC-Müsavat hakimiyyəti Azərbaycanı uçuruma aparır.

Hamımıza yaxşı bəllidir ki, AXC-Müsavat hakimiyyəti üçün vahid komanda, vahid lider anlayışı yox idi. Hakimiyyət daxilində müxtəlif qruplar mövcud idi. Bunlardan biri və ən pozucu mövqe tutanı da elə Ə.Kərimlinin rəhbərlik etdiyi "Yurd"çular idi.

AXC-Müsavat hakimiyyəti əslində ölkədə talançılıqla məşğul idi. Həmin dövrdə məmur özbaşınalığı, korrupsiya, rüşvətxorluq gündəlik həyatımızın reallığına çevrilmişdi. O zamankı ölkə başçısı 1993-cü ilin mayında keçirdiyi müşavirədə bütün dövlət strukturlarında korrupsiya və rüşvətxorluğun baş alıb getdiyini bildirmişdi. Prezident Ə.Elçibəyin üzünü müşavirədəki dövlət məmurlarına tutaraq "Bizim sayəmizdə bu respublika dağılır, niyə bu respublikanı dağıdırsınız?, Tankın qabağında duruş gətirənlər, rüşvətin qabağında dayana bilmədilər" deməsini də hamımız xatırlayırıq.

Artıq AXC-Müsavat cütlüyü 1993-cü ilin yayında baş verən hadisələr zamanı ictimai dəstəkdən tamamilə məhrum olmuşdu. Respublika rəhbərliyi xalqın etimadını itirməsinə baxmayaraq hakimiyyətdən əl çəkmək istəmirdi. Hətta o zaman baş nazir olan Pənah Hüseynov demişdi ki, 95 faiz əhali bizim əleyhimizə olsa da, hakimiyyətdən getməyəcəyik.

AXC-Müsavat cütlüyünün yarıtmaz daxili və xarici siyasəti, vəzifə davası, vətəndaş müharibəsi yenidən ölkəmizin müstəqilliyinin itirilməsi təhlükəsi yaratmışdı. Respublikada vəziyyət getdikcə gərginləşirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən o vaxtkı iqtidar əhali arasında günbəgün öz nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi. Bu dönəmdə AXC-Müsavat iqtidarının fərsizliyi ucbatından Gəncədə qardaş qanı tökülürdü. O günlərdə Gəncədə ardı-arası kəsilməyən mitinqlər keçirilir, hadisələrə siyasi qiymət verilməsi tələb edilirdi.

Belə bir dövrdə xalq ümidini ulu öndər Heydər Əliyevə bağladı, onun dövlət idarəçiliyini ələ almasını istədi, dünya şöhrətli siyasətçini Naxçıvandan Bakıya dəvət etdi. Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra qısa müddət ərzində ölkədə sabitliyi bərpa etdi, separatçı qüvvələri zərərsizləşdirdi, 1994-95-ci illərdə dövlət çevrilişi cəhdlərinin qarşısını qətiyyətlə aldı. Məhz bu mərhələdən sonra xalqımız sakit həyat tərzi sürməyə başladı. Qısa müddətdə ölkədə milli birlik və həmrəylik bərpa olundu. Cəbhədə vəziyyət dəyişdi. Uğurlu Horadiz əməliyyatı aparıldı. Horadiz əməliyyatı nəticəsində 20-dən çox yaşayış məntəqəsi işğalçılardan azad edildi.

Yaddaşı kortalmış AXCP sədri Əli Kərimli isə bu gün utanmadan yenidən yaxın tariximizdə baş verənləri təhrif edir, şər-böhtan dolu çıxışlarında iddia edir ki, ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanın 7 rayonu işğal olunub. Təbii ki, bütün bunlar tarixin saxtalaşdırılması cəhdindən başqa bir şey deyil. Ə.Kərimli elə düşünür ki, bütün bu yalanları ilə cəmiyyəti aldada biləcək. Ancaq o, unudur ki, xalqımız yaxşı bilir ki, o zaman vahid komandanlıq olmadığına görə ordu ayrı-ayrı şəxslər tərəfindən idarə olunurdu. Xalq Cəbhəsinin rəhbərliyində olan, yüksək vəzifə tutan hər bir şəxsin ayrıca komanda verdiyi hərbi dəstələri var idi. O dəstələrdən birinin başında Surət Hüseynov dayanırdı. S.Hüseynovun özünü də Cəbhə hakimiyyəti Qarabağda Prezidentin səlahiyyətli nümayəndəsi təyin etmişdi. Hətta ona "milli qəhrəman" adı da verilmişdi. Hakimiyyətdaxili maraqların toqquşması, nəhayət, Gəncədə hərbi qiyamla nəticələndi. O zamankı korpus komandiri Surət Hüseynovun nəzarətində olan 709 saylı hərbi hissənin tərk-silah edilməsi ilə bağlı hökumətin həyata keçirdiyi əməliyyat uğursuzluqla nəticələndi.

Hamımız yaxşı bilirik ki, hələ 1993-cü ilin fevralında Prezident Əbülfəz Elçibəy 709 saylı hərbi hissənin ləğvi haqqında sərəncam vermişdi. Ancaq bu Sərəncamı həmin hissəyə faktiki rəhbərlik edən Surət Hüseynov icra etməkdən imtina etmişdi. Prezident Gəncənin müdafiəsi və Surət Hüseynovu neytrallaşdırmaq məqsədi ilə bu Sərəncamı verdi. Surət Hüseynovun yaxın adamlarından biri həmin hissəyə komandir təyin edildi. Ancaq bu Sərəncamdan heç bir ay keçməmiş Surət Hüseynov Prezidentə yazılı ultimatum göndərərək onu tanımadığını açıqca bəyan etdi. Prezident 709 saylı hərbi hissənin rəhbərliyinin dəyişdirilməsi və onun Ağcabədi rayonuna köçürülməsi haqqında yeni bir sərəncam verdi. Gəncədə bu Sərəncamı da yerinə yetirməkdən imtina etdilər, üstəlik ora gələn hüquq mühafizə orqanlarının rəhbər şəxsləri girov götürüldülər.

Bu deyilmidi sizin dövlətçiliyiniz, dövləti idarətməniz, qabiliyyət və bacarığınız, cənab Əli Kərimli?

Bu gün siyasi partiya rəhbərindən çox sosial şəbəkələrdə bloqer kimi fəaliyyət göstərən, 1993-cü ildə isə xalqın qəzəbi və nifrəti qarşısında, eləcə də Surət Hüseynovun dar ağacından qorxaraq titrətmə tutan həmin başabəla iqtidarın neçə-neçə təmsilçisi kimi "vəzifəsini donduran" AXCP sədri Əli Kərimliyə bir daha xatırlatmaq istərdik ki, məhz AXC-Müsavat cütlüyünün antimilli və səriştəsiz siyasəti Azərbaycanı qarşıdurma meydanına çevirmişdi.

Elə buradaca üzümüzü AXCP sədrinə tutub deyirik: Səni və AXC-Müsavat cütlüyünün digər üzvlərini, necə deyərlər, "əqidədaşlar"ını adi bir polkovnik olan Surət Hüseynovun dar ağacından xilas edənin ulu öndər Heydər Əliyev olduğunu nə tez unutdun, Əli Kərimli? Axı insan bu qədər nankor, xain və unutqan olmaz. Sonda Ə.Kərimliyə o paslanmış yaddaşını bir az təzələməyi, həqiqətin gözünün içinə dik baxmağı məsləhət görərək böyük mütəfəkkir Əbu Turxanın müdrik bir kəlamını xatırlatmaq istərdik: "Hərə öz zəmanəsində oturub tarix yaza bilməz; bütün ruhu ilə keçmişə köçmək, dövrün ab-havasına bələd olmaq və indiyə keçmişlə birlikdə qayıtmaq lazımdır".

**Zahid Rza,**
***"İki sahil"***

## "QƏRBİ ABŞERON"da QAZMA LAYİHƏLƏRİ UĞURLA HƏYATA KEÇİRİLİR



Kompleks qazma və quyu xidmətləri göstərən "SOCAR-AQŞ" bu günlərdə "Qərbi Abşeron" yatağı 10 saylı stasionar dəniz özülündən faktiki dərinliyi 815 metr olan 65 nömrəli quyunun tikintisi işlərini təhlükəsiz, keyfiyyətlə və ətraf mühitə heç bir ziyan vurmadan uğurla yekunlaşdırıb. Müəssisə eyni zamanda, 10 saylı özüldən layihə dərinliyi 780 metr olan 18 nömrəli quyuda qazma işlərinə start verib. 18 nömrəli quyunun Qırmaki altı Lay Dəsti (QAD) horizontuna qazılması planlaşdırılır.

Məlumat üçün bildirək ki, hər iki quyunun sifarişçisi SOCAR-ın "Azneft" İstehsalat Birliyidir.

Qeyd edək ki, müəssisə 10 saylı stasionar dəniz özülündə yeni nəsil qazma avadanlığı olan "Drilmec HH 300" vasitəsilə quyuların qazılmasını həyata keçirir.

Dəyərlərinə daim sadiq qalan "SOCAR AQŞ" həmişə olduğu kimi, bu və növbəti quyuları da sağlamlıq, texniki təhlükəsizlik və ətraf mühitin mühafizəsi tələblərinə uyğun, heç bir mürəkkəbləşməyə yol vermədən, nəzərdə tutulan vaxtdan tez və iqtisadi səmərəli şəkildə tikərək sifarişçiyə təhvil verəcək.

## 7 SAYLI İNTERNAT EVİNİN BALACA SAKİNLƏRİ ZİYARƏT EDİLİB




Yeni Azərbaycan Partiyası (YAP) Sumqayıt şəhər təşkilatının üzvləri, şəhər Təhsil şöbəsinin gənc müəllimləri və 1 saylı Uşaq-Gənclər İnkişaf Mərkəzinin gənc yaradıcı heyəti Saray qəsəbəsindəki 7 saylı fiziki və əqli qüsurlu uşaqlar üçün internat evinin balaca sakinlərini ziyarət ediblər.

Tədbiri giriş sözü ilə YAP Sumqayıt şəhər təşkilatı sədrinin müavini Vəzirxan Ənsərov açaraq bildirib ki, partiyanın şəhər təşkilatı artıq silsilə halını almış xeyriyyə aksiyalarını şəhərin 70 illik yubileyi ərəfəsində də davam etdirərək ehtiyacı olan insanlarımıza yardım göstərməyi, fiziki və əqli qüsurlu uşaqlar üçün internat evinin balaca sakinlərini ziyarət etməyi qarşısına məqsəd qoyub.

Şəhər Təhsil şöbəsinin nümayəndəsi Cəmilə Fəyyaz çıxışında bildirib ki, bu gün Saray qəsəbəsi 7 nömrəli fiziki və əqli qüsurlu uşaqlar üçün internat evi xüsusi qayğıya ehtiyac duyan əqli cəhətdən qüsurlu uşaqların dövlət himayəsində yaşadığı bir müəssisədir: "Burada 150 uşaq məskunlaşıb. Onlar dövlətimiz tərəfindən hərtərəfli qayğı ilə əhatə olunsalar da, biz bu uşaqlarla Sumqayıt şəhərinin 70 illik yubileyi ərəfəsində birgə olmağı özümüzə borc bildik."

Bədii hissədə 1 saylı Uşaq-Gənclər İnkişaf Mərkəzinin gənc yaradıcı heyəti Saray 7 nömrəli fiziki və əqli qüsurlu uşaqlar üçün internat evinin uşaqları ilə musiqi ifa edib, birgə rəqs ediblər.

Sonda əqli və fiziki cəhətdən qüsurlu uşaqlara sovqatlar təqdim olunub.

## "AZƏRİKİMYA"da ŞAHMAT TURNİRİ



SOCAR-ın "Azərikimya" İstehsalat Birliyində (İB) "Əsrin müqaviləsi"nin 25 illiyinə və Sumqayıt şəhərinin 70 illik yubileyinə həsr olunmuş şahmat turniri keçirilib.

Turnirdə "Azərikimya" İB-nin idarətmə aparatının, Etilen-polietilen zavodunun, Təmir-tikinti idarəsinin, Yeni Azərbaycan Partiyası (YAP) Sumqayıt şəhər təşkilatının, Sumqayıt "ASAN xidmət" mərkəzinin, Azərbaycan "Qızıl Aypara" Cəmiyyəti şəhər bölməsinin, Sumqayıt Şəhər Gənclər Mərkəzinin, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Sumqayıt şəhər şöbəsinin, şəhər Baş poçt idarəsinin, Qaz-istismar idarəsinin, Sumqayıt Regional Mədəniyyət İdarəsinin komandaları da daxil olmaqla 24 komanda iştirak edib.

Sumqayıt Şahmat Məktəbinin hakimlər heyətinin ciddi nəzarəti altında, FİDE-nin qaydalarına əsasən gərgin və maraqlı idman mübarizəsi şəraitində keçən yarışlarda Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Sumqayıt şəhər şöbəsinin üzvü Rasim Eyvazov birinci yerin qalibi olub. Sumqayıt şəhər sakini, təqaüdçü Rafiq Kərimov və Qaz-istismar idarəsinin işçisi Xəyyam Həsənov isə müvafiq olaraq ikinci və üçüncü yerləri bölüşüblər.

Qaliblərə "Azərikimya" İstehsalat Birliyinin Həmkarlar İttifaqı Komitəsi tərəfindən qiymətli hədiyyələr və Fəxri fərmanlar təqdim olunub.

**Orxan Vahidoğlu, *"İki sahil"***

# YAP Səbail rayon təşkilatında ərazi ilk partiya təşkilat sədrlərinin iştirakı ilə yığıncaq keçirilib





Sentyabrın 4-də YAP Səbail rayon təşkilatının qərargahında avqustun 30-da Yeni Azərbaycan Partiyasının İcra Katibliyində partiyanın sədr müavini - icra katibi, Baş Nazirin müavini Əli Əhmədovun sədrliyi ilə keçirilmiş müşavirədə verilən tapşırıq və tövsiyələrin icrası ilə bağlı ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə işgüzar yığıncaq keçirilib.

AZƏRTAC xəbər verir ki, yığıncaqda çıxış edən YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev avqustun 30-da keçirilmiş müşavirədə verilən tapşırıq və tövsiyələr, ölkəmizin ictimai-siyasi həyatında gedən proseslər, qarşıdan gələn bələdiyyə seçkilərinə hazırlıq prosesi və YAP Səbail rayon təşkilatının qarşısında duran vəzifələr haqqında ətraflı məlumat verib.

Daha sonra verilən tapşırıqlar üzrə müzakirələr aparılıb. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini, YAP Səbail rayon "Ailə problemləri" ərazi ilk partiya təşkilatının sədri Sədaqət Qəhrəmanova, Azərbaycan Teatr Xadimləri İttifaqının sədr müavini, YAP Səbail rayon "Aktyorlar Evi" ərazi ilk partiya təşkilatının sədri, Xalq artisti Hacı İsmayılov, YAP Səbail rayon "Təhsil tədqiqatçıları" (Azərbaycan Respublikası Təhsil İnstitutu) ərazi ilk partiya təşkilatının sədri Pirali Əliyev müzakirə olunan məsələlərlə bağlı təkliflər irəli sürüblər.

Yığıncaqda YAP Səbail rayon təşkilatının qeydiyyatında olan bütün ərazi ilk partiya təşkilatlarının sədrləri qarşısında konkret vəzifələr qoyulub.

# *Sahibə Qafarova:* Ermənistan regionu yeni təhlükə və risklərlə üz-üzə qoyur



"Ermənistan rəhbərliyi açıq-aşkar sübut edir ki, Ermənistanın danışıqlar prosesində iştirakı riyakarlıq və beynəlxalq ictimaiyyəti aldatmaqdan başqa bir şey olmamışdır. Ona görə də beynəlxalq ictimaiyyət Ermənistana özünü cəzasızlıq şəraitində hiss etməsinə imkan verməməli, Ermənistan rəsmilərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü kobud surətdə pozan məsuliyyətsiz bəyanatlarını və addımlarını pisləməli, onu bu yoldan çəkindirməli, münaqişənin sülh yolu ilə BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr əsasında həlli üzrə danışıqlar prosesinə məcbur etməlidir. Nikol Paşinyanın məlum bəyanatı Azərbaycanın ərazi bütövlüyünə qarşı rəsmi olaraq iddianın irəli sürülməsi və açıq-aşkar müharibəyə təhrikdir. Nikol Paşinyan bu təxribatçı və destruktiv açıqlamalarla regionu yeni təhlükə və risklərlə üz-üzə qoyur. O, diqqəti ölkədaxili problemlərdən yayındırmaq üçün vəziyyəti qəsdən gərginləşdirir". Bu fikirləri Milli Məclisin deputatı Sahibə Qafarova deyib.

S.Qafarova bildirib ki, Nikol Paşinyan hakimiyyətə gəldiyi 1 il müddətində heç bir ciddi iş görə bilmədiyi üçün erməni cəmiyyətini "xarici düşmən təhlükəsi" ətrafında birləşdirməyə çalışır. Dağlıq Qarabağ probleminə görə çıxılmaz vəziyyətə düşmüş N.Paşinyan Ermənistanda çürük və yalanlarla dolu anti-Azərbaycan təbliğat maşınını gücləndirmək istəyir.

Deputat qeyd edib ki, ATƏT-in Minsk qrupu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ciddi addımlar atmalıdır: "Ermənistan ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə ciddi danışıqlar aparmaq əvəzinə Azərbaycanın səbrindən və münaqişənin dinc yolla həlli ilə bağlı üzərinə götürdüyü öhdəlikdən sui-istifadə edir. Ermənistan bütün mümkün vasitələrlə danışıqlar prosesini bloklayır, münaqişənin həllindən yayınır və işğalı, etnik təmizləmənin nəticələrini davam etdirmək, status-kvonu saxlamaq üçün vaxt qazanmağa çalışır. Paşinyanın bu açıqlamaları, ilk növbədə, BMT Təhlükəsizlik Şurasına, ATƏT-in Minsk qrupuna və bu qrupun həmsədri olan ölkələrə münasibətdə sərgilənən hörmətsizlikdir və bunun cavabı da sözügedən qurum və ölkələr tərəfindən verilməlidir".

S.Qafarova deyib ki, Ermənistanın həm siyasi, həm də hərbi müstəvidə həyata keçirmək istədiyi bütün təxribatların qarşısı kəskin şəkildə alınacaq.

*M.Zaxarova:*

# Dağlıq Qarabağ münaqişəsinə dair bəyanatlar bu münaqişənin nizamlanmasında irəliləyişə nail olmağa şərait yaratmalıdır



Dağlıq Qarabağ münaqişəsinə dair bəyanatlar bu münaqişənin nizamlanması yolunda sürətli irəliləyişə şərait yaratmalıdır.

AZƏRTAC xəbər verir ki, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu fikri Moskvada keçirdiyi brifinqdə Ermənistanın baş naziri Nikol Paşinyanın son bəyanatları barədə sualın cavabında səsləndirib.

O bildirib ki, münaqişə tərəflərinin bəyanatları münaqişənin dinc yolla nizamlanmasına yönəlmiş ümumi səylərə uyğun olmalıdır.

Rusiya XİN nümayəndəsi deyib: "Danışıqlar prosesində "nifaq alması"na çevrilən və əlavə suallar doğuran bəyanatlardan sonra əvvəlki mövqeyə qayıtmaq həmişə çox mürəkkəb məsələdir və bu, amanəbənd danışıqlar prosesinin tarazlığını poza bilər. Təəssüf ki, biz müxtəlif səviyyələrdə müxtəlif tərəflərin bu cür bəyanatlarını çox eşitmişik və bu cür bəyanatlarla yenə üzləşirik".

M.Zaxarova deyib: "Biz daxili siyasi prosesə hörmət bəsləyirik və başa düşürük ki, siyasi quruluşun demokratik modelində insanlar istənilən mövzuda fikir söyləmək, lakin eyni zamanda müvafiq siyasi ilkin şərait formalaşdırmaq hüququna malikdirlər. Çox istərdik ki, bütün tərəflər bir başlıca şərtə əməl etsinlər - bütün resurslar münaqişənin tezliklə və dinc yolla tənzimlənməsinə yönəldilməlidir. Bu, mürəkkəb və uzun prosesdir. Düşünürəm ki, sürətlə irəliləməyin zəruri olmasını hamı başa düşür və bunun üçün bəyanatlar həmin əsas hədəfə müvafiq olmalı və ona şərait yaratmalıdır".

MÜDAFİƏ NAZİRLİYİ:

## Monitorinq insidentsiz başa çatıb



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, sentyabrın 4-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçiriblər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Oqnyen Yoviç, Mixail Olaru və Martin Şuster aparıblar.

## Rusiyanın Təhlükəsizlik Şurasının katibi ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib



Azərbaycanda səfərdə olan Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 4-də Fəxri xiyabana gələrək müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gedən nümayəndə heyəti Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

## Rusiya Səhiyyə Nazirliyinin baş onkoloqu xərçəngi yaradan başlıca amilləri sadalayıb



Siqaret, alkoqol və insan papilloması virusu xərçəng xəstəliyinin yaranmasının başlıca səbəbləridir.

AZƏRTAC xəbər verir ki, xərçəng yaradan bu amilləri Rusiya Səhiyyə Nazirliyinin baş onkoloqu Andrey Kaprin jurnalistlərlə söhbətində sadalayıb. O qeyd edib ki, xəstəliyin yaranmasına 15 faiz insanın genotipi səbəb olur, qalan amillər isə həyat tərzi ilə bağlıdır.

Baş onkoloq xəstəliyin kimyəvi vasitələrin, məsələn, boyaların təsirindən də yarana biləcəyini istisna etməyib.

# Azərbaycan neft-qaz sənayesində qazma işlərinin tarixi, bu günü və perspektivləri

### "Əsrin müqaviləsi"nin ortaya qoyduğu gerçəkliklər

Bu gün hətta Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan əlamətdar tarixi günün astanasındadır. Sentyabrın 20-də xalqımız müasir müstəqil respublikamızın tarixinə "Əsrin müqaviləsi" adı ilə daxil olmuş neft kontraktının imzalanmasının 25 illiyini təntənə ilə qeyd edəcək.

"Əsrin müqaviləsi"nin tarixi əhəmiyyətinə bu günün prizmasından yanaşan Qərb Universitetinin professoru, politoloq Fikrət Sadıqov mövzu ilə bağlı qəzetimizə açıqlamasında söylədi ki, 25 il öncə dünyanın transmilli şirkətlərinin rəhbərləri Bakıda bir araya gələrkən Azərbaycanın qısa müddətdə Avropanın enerji təhlükəsizliyinin təminatında aparıcı ölkələrdən birinə çevriləcəyini çox az adam düşünürdü. F.Sadıqov vurğuladı ki, ulu öndər Heydər Əliyevin şah əsəri olan "Əsrin müqaviləsi"nin iqtisadi tərəfindən başqa, siyasi və geostrateji əhəmiyyəti də böyükdür: "Bu saziş strateji baxımdan sadəcə neft hasilatı üzrə bağlanmış müqavilə kimi xarakterizə edilə bilməz. Sözügedən sazişdə Azərbaycanın enerji ehtiyatlarının Avropa bazarına çıxarılmasının nəzərdə tutulmasına baxmayaraq, müqavilə həm də böyük geopolitik təsirlərə malikdir. Əvvəla, sazişdə iştirak edən şirkətlərin malik olduqları payların ardıcıllığı Azərbaycanın Qərbə yönəlik, eyni zamanda, balanslaşdırılmış siyasət yürüdəcəyinə işarə idi. "Əsrin müqaviləsi" məhz qısa müddətdə iqtisadiyyatımızda neft gəlirlərinin aparıcı rol oynayacağına zəmin yaradırdı".

Politoloqun qənaətinə görə, respublikamızın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin təməlini qoyan, xüsusilə Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərlərinin, bu gün geosiyasi və iqtisadi əhəmiyyəti ilə seçilən Cənub Qaz Dəhlizi və onun əsas seqmentləri - TANAP, TAP kimi iri transmilli layihələrin reallaşmasına yol açan "Əsrin müqaviləsi"nin ərsəyə gəlməsi qədim neft diyarı kimi tanınan Azərbaycanın "qara qızıl"ın sənaye üsulu ilə çıxarılmasına başlanmasından ötən dövrdə bu sahədə qazandığı möhtəşəm uğurların məntiqi nəticəsidir.

### "İlk"ə kim imza atıb: ABŞ, yoxsa Azərbaycan?

Bu sualın birmənalı cavabı Azərbaycandır. Bunu biz demirik, real tarixi sənədlərə əsaslanan faktlar və rəqəmlər ifadə edir. Tarixi mənbələr, xüsusilə son illərdə Rusiya Mərkəzi Dövlət Tarix Arxivindən tapılmış sənədlər həqiqətən dünyada sənaye üsulu ilə ilk neft quyusunun Azərbaycanda qazıldığını sübut edir. Belə sənədlərdən biri Zaqafqaziya Vilayəti Baş İdarəsinin Şura üzvü, dövlət müşaviri Vasili Semyonovun bu vilayətin baş komandanı, general Aleksandr Neydqarta yazdığı 1844-cü il 22 dekabr tarixli məktubdur. Dövlət müşaviri sözügedən məktubunda Abşeron yarımadasındakı neft mədənlərini ətraflı təsvir edir, hasilatın artırılması üçün konkret texniki və təşkilati təkliflər irəli sürür. V. Semyonovun məktubuna müsbət rəy verildikdən sonra 1845-ci ilin aprelində maliyyə naziri Fyodor Vronçenkonun göstərişi ilə Kaspi Xəzinə Palatası tərəfindən qazma işlərinə 1000 gümüş sikkə ayrılır və Bibiheybət rayonunda kəşfiyyat quyusunun qazılması haqqında tapşırıq verilir.

1846-cı ilin yanvarında isə Bakı neft və duz mədənlərinin direktoru, dağ mühəndisləri korpusunun podpolkovniki Nikolay Voskoboynikovun rəhbərliyi ilə Bibiheybət yatağında iki quyunun qazılmasına başlanılır. Quyulardan biri 21 metr dərinlikdən neft verir və bununla da dünyada neftin sənaye üsulu ilə hasilatının əsası qoyulur.

Bu kimi real faktlar ortada olduğu halda, çox maraqlı və maraqlı olduğu qədər də təəccüblüdür ki, indiyədək bütün dünyada sənaye üsulu ilə ilk neft quyusunun ABŞ-ın Pensilvaniya ştatında qazıldığı iddia edilir. Lakin yuxarıda qeyd etdiyimiz faktlardan da məlum olur ki, Pensilvaniya ştatında bu tipli quyu Azərbaycandan düz 13 il sonra-1859-cu ildə "həyata vəsiqə almışdır". Ortada, necə deyərlər, daşdan keçən dəlil-sübutlar olduğu halda görəsən nə üçün ABŞ sənaye üsulu ilə qazılmış ilk neft quyusunun vətəni sayılır?

Muzey mütəxəssisi Aygül Şamçıyeva dünyada daha çox ABŞ-da qazılan quyunun tanınmasının səbəbini belə izah edir: "ABŞ-dakı quyudan sənaye həcmində neft aşkar olunmuşdu. Bakıda isə 21 metr dərinlikdən neft aşkar olunsa da həcmi çox az idi. Ona görə belə qərara gəliblər."

Yeri gəlmişkən qeyd edək ki, 2017-ci ilin aprelində Bibiheybət yatağında dünyada sənaye üsulu ilə qazılmış ilk neft quyusunun bərpasının başa çatdırılması və həmin ayın 26-da Azərbaycan Prezidenti İlham Əliyevin quyunun bərpadan sonrakı vəziyyəti ilə tanış olması faktı da müasir müstəqil Azərbaycan dövlətinin neft sənayesinin yaranma tarixinə hörmət və ehtiramının əyani təzahürü kimi qiymətləndirilməlidir. Təqdirəlayiq haldır ki, hazırda Azərbaycana müxtəlif ölkələrdən gələn turistlərin də ziyarətgahına çevrilən sənaye üsulu ilə qazılmış ilk neft quyusunun yerləşdiyi ərazidə bu quyunun özü ilə bərabər, XIX əsrdə burada "Nobel qardaşları neft hasilatı şirkəti"nə məxsus neft və neft məhsullarının daşınması üçün ağcaqayın ağacından hazırlanmış fəner borunun bir hissəsi, həmçinin həmin şirkətin sifarişinə əsasən Bakıya gətirilmiş quyuüstü avadanlıqlar da nümayiş olunur.

### Ötən 173 ilin xronikası: 21 metrdən 7 min 411 metrədək...

Şübhəsiz, Azərbaycanda qazma işlərinin inkişafının aydın mənzərəsini yaratmaq üçün ilk növbədə ölkəmizin neft-qaz sənayesi tarixində iki möhtəşəm hadisə arasında paralellər aparmaq zərurəti yaranır: 1846-cı ilin yanvar ayı. Bakıdakı Bibiheybət yatağında sənaye üsulu ilə ilk quzu qazılır və o dövr üçün rekord həddə- yerin 21 dərinliyinə gedib çatan bu quyudan dünyada birinci dəfə sənaye üsulu ilə neft hasil olunur. 173 il sonra. 2019-cu ilin 15 aprel tarixi, saat 13:00. Bakıdan 100 kilometr cənub-şərqdə, "Şahdəniz" yatağından 25 kilometr şimal-şərqdə yerləşən, qaz ehtiyatları 350 milyard kubmetr, kondensatları isə 45 milyon ton həcmində dəyərləndirilən "Abşeron" yatağında 2017-ci ildə Xəzər tərsanəsində tikilib sınaqdan keçirilmiş "Heydər Əliyev" yarımdalma qazma qurğusunun qazdığı ilk quyu Xəzər dənizində bu günədək rekord göstərici hesab edilən 7 411 metr dərinliyə çatır.

Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban "İki sahil"ə açıqlamasında neft-qaz sənayemizin bu inkişafa necə nail olmasına



aydınlıq gətirdi. Bildirdi ki, neftin ilk dəfə sənaye üsulu ilə çıxarılmasından sonra mərhələlərlə tətbiq edilən, hər biri inqilabi yenilik kimi dəyərləndirilən geoloji- kəşfiyyat tədbirləri və qazma işləri hazırda Avropanın enerji təhlükəsizliyində söz sahiblərindən biri olan Azərbaycanın bugünkü uğurlarını təmin etdi: "Təsəvvür edin, 1846-cı ilə qədər Abşeron yarımadasında bellə, güllünglə və digər primitiv alətlərlə qazılan quyuların dərinliyi maksimum 10 metrə çatırdı. Bu gün isə 7411 metrdən söhbət gedir. O zaman primitiv alətlərlə qazılan quyunun ətrafını taxta ilə bərkidir, neft layına çatandan sonra üstündə buruq tikib çıxarılan xam nefti arxlar vasitəsilə gölməçələrə yönəldir, oradan da satışa göndərirdilər. Bu gün isə qazma işlərinin səviyyəsi həm texnoloji, həm də modernləşmə baxımından fantastik həddə çatıb. Halbuki 173 il bundan əvvəl bu günün reallıqlarını hətta göz önünə gətirmək belə mümkün deyildi."

### Niyə məhz Heydər Əliyev erası?

Neftin ilk dəfə sənaye üsulu ilə çıxarılmasından sonrakı mərhələlərdə, xüsusilə 1949-cu ilin 7 noyabrında açıq dənizdə "Neft Daşları" yatağının aşkar edilməsi və 1950-ci ildə istismara buraxılması ilə Azərbaycan dünyaya səs salan uğurlara çatsa da, bugünkü nailiyyətlərimizin bünövrəsi olan yeni neft strategiyasının hazırlanması və həyata keçirilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Zənnimizcə, neft-qaz sənayesində Heydər Əliyev erasının başlanması ilə ölkəmizin energetika sektorunda qazanılan bugünkü cahanşümul qələbələr arasında möhkəm tellərlə bağlılığı açıq-aydın görmək üçün təkcə bu faktı qabartmaq kifayətdir: 1969-cu ildə Ulu Öndər Azərbaycan SSR-in rəhbəri seçilənədək Xəzərdə istifadə olunan texniki vəsait yalnız dənizin dərinlikləri 40 metrə qədər olan sahələrində qazma işləri aparmağa imkan verirdi. Parodoksal vəziyyət yaranmışdı. Həmin dövrdə Xəzərin Azərbaycan sektorunda 40 metrədək dərinlikdəki perspektivli sahələrdə neft-qaz yataqlarının demək olar ki, hamısı aşkar olunmuşdu. Dənizdə neft və qaz hasilatının artırılması yalnız daha dərin qatlarda yerləşən yataqların mənimsənilməsi ilə mümkün idi. Bu işləri görmək üçün isə müasir geoloji-kəşfiyyat və qazma qurğuları yox idi.

Məhz Ulu Öndərin bilavasitə təşəbbüsü ilə 1970-80-ci illərdə Azərbaycana 75 növdə 400-dən çox ağır yük qaldıran kran gəmisi, boruçəkən gəmilər, seysmik, sərnişin və s. gəmi növləri gətirildi. Xəzərdə 2500 ton gücündə "Azərbaycan" kran gəmisi işə başladı. Bundan başqa, ilk vaxtlarda dənizin 70 metr dərinliyindəki sahələrdə geoloji-kəşfiyyat işləri aparmaq üçün "Xəzər" tipli özüqalxan, sonralar isə dənizin 200 metr dərinliyində işləməyə imkan verən "Şelf" tipli yarımdalma üzən qazma qurğularının alınması nəticəsində Xəzərin daha dərin sahələrində zəngin neft və qaz yataqlarının kəşf olunması və qazma əməliyyatları aparılmasına imkan yarandı. Nəticədə Ümummilli Liderin Azərbaycana birinci rəhbərliyi dövründə 60-cı illərin sonu ilə müqayisədə yeni 8 neft və qaz yataqları kəşf edildi, neft ehtiyatları iki, qaz ehtiyatları isə üç dəfə artırıldı. Bu illərdə üzən qazma qurğularının sayı 11-ə çatdı və onlardan istifadə nəticəsində bu gün Azərbaycanı bütün dünyada şöhrətləndirən, başqa sözlə, "Əsrin müqaviləsi"nin mayasını təşkil edən "Azəri", "Günəşli"," Çıraq" və sair kimi nəhəng və perspektivli neft yataqları kəşf olunub istismara verildi.

Ümumiyyətlə, müasir tariximizə "Azərbaycannın neft-qaz sənayesində Heydər Əliyev erası" adı ilə daxil olmuş Ulu Öndərin 1969-1982-ci illəri əhatə edən birinci dövründə və 1993-2003-cü illəri əhatə edən ikinci hakimiyyəti illərində respublikamızın neft-qaz sənayesində qazanılan möhtəşəm uğurları nəinki bir qəzet məqaləsinə, hətta cild-cild kitablara belə sığışdırmaq mümkün deyil. Zənnimizcə, yeni neft strategiyasının ölkəmizə qazandırdığı ən böyük uğurlar "Əsrin müvaviləsi"nin imzalanmasından ötən 25 ildə Ümummilli Liderin və Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin yanacaq-energetika sektorunda əldə olunan nailiyyətlərin Azərbaycanın bügünkü gerçəkliklərini yaratmasıdır.

### "SOCAR-AQŞ": Azərbaycanın müasir qazma sənayesində əsas söz sahibi

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanda neftin sənaye üsulu ilə çıxarılmasına başlanandan keçən müddətdə, xüsusilə son 25 ildə istər quruda, istərsə də dənizdə qazma işlərinin daim təkmilləşdirilməsi və modernləşdirilməsi ölkəmizin neft-qaz sənayesinin inkişafında həlledici rol oynamışdır.

Bu uğurlarda 2007-ci ildə "SOCAR" və "Abşeron Qazma Şirkəti" tərəfindən inteqrə olunmuş qazma və quyu xidmətləri göstərən birgə müəssisə statusunda təsis edilmiş "SOCAR- AQŞ"-nin müstəsna xidmətləri xüsusi vurğulanmalıdır. Bu gün Azərbaycanın qazma sənayesində xüsusi yeri olan "SOCAR-AQŞ" MMC-nin əsas fəaliyyəti Xəzər dənizinin neft və qaz yataqlarında quyuların layihələndirilməsi, planlaşdırılması, neft-qaz quyularının maili və horizontal qazılmaqla mənimsənilməsi, əsaslı təmiri, yan lülələrin qazılması ilə bağlı iş və xidmətlərdən ibarətdir.

Mübaliğəsiz demək olar ki, "SOCAR-AQŞ" Azərbaycanın milli qazma müəssisəsi kimi ilk dəfə olaraq analoqu olmayan yeni nəsil qazma qurğularının Azərbaycana gətirilməsini və onların vasitəsilə Xəzərin ən dərin qatlarında dünya neft-qaqz sənayesi tarixində bənzərsiz mürəkkəb qazma əməliyyatlarının aparılmasını uğurla təmin edir. Dənizdə neft-qaz quyularının qazılması və quyu təmiri xidmətlərinin göstərilməsi üzrə API Spec Q2 Keyfiyyət İdarəetmə Sisteminin tələblərinə əsasən sertifikatlaşdırılmış "SOCAR -AQŞ"nin platformada və Baş İnzibati Ofisində quraşdırılmış, qazma işlərinə onlayn nəzarət sistemi vasitəsilə bu gün MMC-nin mütəxəssisləri ilə yanaşı, sifarişçi şirkətin əməkdaşları da öz ofislərində qazma vaxtı quyuda gedən prosesləri anbaan izləyə bilirlər. Bundan əlavə, Xəzərin Azərbaycan sektorunda yüksək təzyiqli və temperaturlu quyuların qazılmasını, o cümlədən "Bulla" yatağı üzrə V və VII horizontlardan beynəlxalq standartlara cavab verən süxur nümunələrinin götürülməsini ilk dəfə olaraq "SOCAR AQŞ"nin həyata keçirməsi müəssisənin necə böyük texnoloji imkanlara malik olduğunun əyani sübutdur.

Hazırda dayaz sulu ''Günəşli" yatağında yerləşən 7 və 11, "Qərbi Abşeron" yatağında 10, ''Ümid" yatağında 1 və ''Bulla" yatağında 6 saylı Dəniz Stasionar Özüllərində qazma işlərini yeni nəsil qurğu və avadanlıqların, o cümlədən 3000 at gücünə malik "Drillmec" avadanlığının tətbiqi ilə uğurla davam etdirən "SOCAR -AQŞ" perspektivdə Xəzərin Azərbaycan sektorunda daha mürəkkəb qazma əməliyyatlarını müvəffəqiyyətlə reallaşdırmaq əzmindədir.

**Zahid Rza,**
***"İki sahil"***

*Yazı "SOCAR-AQŞ" MMC və Azərbaycan Mətbuat Şurasının "Əsrin müqaviləsi"nin imzalanmasının 25 illiyi münasibətilə kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında keçirdiyi müsabiqəyə təqdim edilir.*

# Kənd təsərrüfatında yeni subsidiya qaydası: nə dəyişəcək?

**Xəbər verildiyi kimi, Aqrar Subsidiya Şurası Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş “Kənd təsərrüfatı məhsullarının istehsalının subsidiyalaşdırılması Qaydası”nın 2.4-cü bəndinə müvafiq olaraq, 2020-ci il üzrə bitkiçilik sahəsində bitkilər və regionlara görə əkin, məhsul və toxum əmsallarının, toxum və ting kvotalarının və əkin ehtiyaclarının müəyyən edilməsi barədə qərar qəbul edib. Qərara əsasən, baza məbləği 200 manat olmaqla 2020-ci ildə əkin əmsalları və əkin subsidiyasının məbləği kənd təsərrüfatı bitkiləri üzrə artıq müəyyən olunub.**




Bununla da illik subsidiya üçün ən yüksək əkin əmsalı zəfəran bitkisi, bağın salındığı ildən ilk 4 il ərzində intensiv qərzəkli meyvə bağları (2 əmsal və ya 1 hektar üçün 400 manat), bağın salındığı ildən ilk 4 ildə üzüm (3 əmsal və ya 1 hektar üçün 600 manat), plantasiyanın salındığı ildən ilk 7 ildə çay (3,5 əmsal və ya 1 hektar üçün 700 manat ) və qərzəklilər istisna olmaqla intensiv meyvə bağlarına (4 əmsal, yəni 1 hektarı üçün 800 manat) tətbiq ediləcək. Eyni zamanda, yer fındığı, qarabaşaq 0,9, buğda, günəbaxan, giləmeyvəlilər 1, bostan bitkiləri, pambıq 1,1, kartof, tərəvəz, bağın salınmasından 4 ildən sonrakı üzüm, plantasiyanın salınmasından 7 il sonrakı çay, qərzəkli də daxil olmaqla salınmasından 4 il sonrakı intensiv meyvə bağları 1,2, çəltik, tütün və şəkər çuğunduru 1,4 əmsalla qiymətləndiriləcək.

Ancaq bəzi bitkilər üzrə subsidiyanın verilməsi üçün əkin əmsalı şərt olmayacaq. Məsələn, çəltik, pambıq, tütün, fındıq, çay üçün nəzərdə tutulan subsidiyalar ancaq ixtisaslaşmış regionlara şamil ediləcək. Bununla da Aqrar Subsidiya Şurasının qərarına görə, çəltik üzrə əkin əmsalı Ağdaş, Ağsu, Astara, Biləsuvar, Göyçay, Lənkəran, Masallı, Salyan, Samux, Ucar, Yevlax, Şəki və Zərdab rayonlarına, pambıq üzrə əkin əmsalı Ağcabədi, Ağdam, Ağdaş, Ağsu, Beyləqan, Bərdə, Biləsuvar, Cəbrayıl, Cəlilabad, Füzuli, Goranboy, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Samux, Tərtər, Ucar, Yevlax və Zərdab rayonlarına, tütün üzrə əkin əmsalı Ağstafa, Balakən, Gədəbəy, Goranboy, İsmayıllı, Lerik, Masallı, Oğuz, Qax, Qazax, Qəbələ, Şəki, Tovuz, Yardımlı və Zaqatala rayonlarına, fındıq üzrə əkin əmsalı Ağstafa, Balakən, Zaqatala, Xaçmaz, Qax, Qəbələ, Quba, Şəki, Oğuz, Qusar, Qazax, Şabran və İsmayıllı rayonlarına, çay üzrə əkin əmsalı Astara, Lənkəran, Masallı və Zaqatala rayonlarına aid ediləcək, digər rayon və şəhərlər üzrə 0-a bərabər qəbul olunacaq.

Bundan başqa, emal müəssisələrinə təhvil verilən pambığın hər tonuna 100 manat, quru tütünün hər tonuna 50 manat, yaş tütünün hər tonuna 5 manat, şəkər çuğundurunun hər tonuna 4 manat subsidiya ödənilməsi barədə qərar qəbul edilib.

İntensiv meyvə bağlarına gəlincə, buraya damcı suvarma sistemi ilə təmin olunmuş alma, armud, gilas (albalı), gavalı, şaftalı (nektarin), ərik, alça və badam bitkiləri üzrə 1 hektara minimum 650 ədəd vegetativ calaqaltı tingin əkildiyi, xurma və nar bitkiləri üzrə 1 hektara minimum 450 ədəd tingin əkildiyi, limon, portağal, naringi və feyxoa bitkiləri üzrə 1 hektara minimum 650 ədəd tingin əkildiyi, fındıq bitkisi üzrə 1 hektara minimum 330 ədəd ocağın olduğu, əzgil, zoğal, iydə, əncir, qoz, zeytun və digər bitkilər üzrə 1 hektara minimum 330 ədəd tingin əkildiyi bağlar aid ediləcək.

Üzüm və intensiv meyvə bağları üzrə subsidiyalar 2019-cu ildən başlayaraq salınmış bağlara şamil ediləcək. Digər meyvə bağlarına görə əkin subsidiyası 1,2 əmsalı üzrə veriləcək. Subsidiya veriləcək digər meyvə bağlarında 1 hektara əkilmiş tinglərin minimum sayının 90 ədəd olması şərti müəyyənləşib.

Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyevin sözlərinə görə, yeni mexanizm sayəsində aqrar sahədə trendlər və fermerlərin müraciətləri nəzərə alınaraq əmsallar və kvotalar dəyişdirilə də bilər. Bununla bağlı Qaydaya görə, əkin əmsalı regionlar və bitkilər üzrə istehsalın dəstəklənməsi dərəcəsi nəzərə alınmaqla Şura tərəfindən müəyyən ediləcək. Buradan həm də o nəticəyə gəlmək olur ki, bunun nə qədər effektiv olub-olmayacağı bilinməsə də, Şura bu yolla fermerlərin hansı məhsulu əkibəkməmələri ilə bağlı qərarlarına təsir etmək imkanı əldə edəcək.

Lakin yeniliyin dəyişilməz nüansı ondan ibarət olacaq ki, subsidiyalar fermerlərə nağdsız şəkildə, yeni kartlar vasitəsilə veriləcək. Fermerlər bu kartın balansında olan məbləğin 25 faizini nağd, qalan 75 faizini isə nağdsız şəkildə istifadə edə biləcəklər. Təqvim ili ərzində istifadə edilməyən subsidiya məbləği isə büdcəyə qaytarılacaq.

Hazırda yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına 50 manat, habelə buğda və çəltik əkinlərinə görə əlavə 40 manat məbləğində subsidiya ödənilir. Eyni zamanda, istehsalçılara dövlət tərəfindən mineral gübrəyə görə maksimum 50 manat, pestisidə görə 150 manatadək dəstək verilir.

Yeni Qaydaya görə, əkin subsidiyası - fermerlərə əkin, çoxillik əkmə altında olan kənd təsərrüfatı yerlərində həmin yerlərin təyinatına uyğun kənd təsərrüfatı bitkilərinin becərilməsi üçün istifadə etdikləri kənd təsərrüfatı istehsal vasitələrinin alınmasına sərf olunan xərclərin bir hissəsini kompensasiya etmək məqsədilə bitki becərilən sahənin hər hektarına görə verilən subsidiyadır. Burada “kənd təsərrüfatı istehsal vasitələri” dedikdə mineral gübrə, biohumus, sertifikatlı toxum, ting və pestisid başa düşülür. Bu isə onu deməyə əsas verir ki, gələn ildən yanacaq və motor yağlarına görə subsidiyanın verilməsi nəzərdə tutulmur.

Belə görünür ki, yenilik bu sahədə neqativ halların qarşısını almaqla subsidiyaların təyinatı üzrə səmərəli istifadəsinə imkan yaradacaq. Belə ki, əkin subsidiyaları üzrə əmsalların kənd təsərrüfatının prioritetləri üzrə müəyyən edilməsi, eyni zamanda, fermerə subsidiyanın 75 faizindən yalnız nağdsız formada yararlanmaq imkanının verilməsi bu sahədə sui-istifadəyə şərait yaratmayacaq.

**Ceyhun Piriyev,**
***“İki sahil”***

# “İşsizin DOSTu” proqramı çərçivəsində yeni siyahı açıqlanacaq

Ölkəmizdə dinamik iqtisadi inkişafın təmin edilməsi, sosial tərəqqinin yüksəldilməsi, əhalinin rifah halının yaxşılaşdırılması Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin başlıca istiqamətlərindəndir. Ölkə başçısının 30 oktyabr 2018-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası”nın 4.4.5-ci bəndində işsiz və işaxtaran vətəndaşların müvəqqəti məşğulluğunun çevik və səmərəli təşkili məqsədilə haqqı ödənilən ictimai işlərin təşkili mexanizminin yeniləşdirilməsi əsas prioritetlərdən biri kimi müəyyən edilib. Bununla da haqqı ödənilən ictimai işlərin təşkili sistemli və şəffaf şəkildə qurulub genişləndirilməsi üçün “İşsizin DOSTu” proqramı hazırlanaraq icra edilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü əsasında hazırlanmış “İşsizin DOSTu” proqramının icrasına cari ilin əvvəlindən başlanılıb. Bu proqram Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin “DOST İş Mərkəzi” tərəfindən icra olunur.

“İşsizin DOSTu” proqramı haqqı ödənilən ictimai işlərin təşkili işlərinin sistemli və şəffaf şəkildə qurulmasına və genişləndirilməsinə xidmət edir. Proqram çərçivəsində ictimai işlərə cəlb olunan vətəndaşlar rayon (şəhər) Məşğulluq mərkəzlərində iş axtaran və ya işsiz kimi qeydiyyatda olan şəxslər arasından müəyyən edilirlər. Əslində bu layihə işsizliyin nəzərə çarpdığı bölgələrdə daha çox tətbiq olunur. Burada ali təhsil və peşə təhsili tələb olunmur. Bu zaman həssas qruplardan olanlara (əlilliyi olanlara, məcburi köçkünlərə, şəhid ailəsi üzvlərinə və b.) üstünlük verilir. “Məşğulluq haqqında” Qanuna əsasən, haqqı ödənilən ictimai işlər işsiz şəxslərin




müvəqqəti məşğulluğunu təmin etmək məqsədi ilə təşkil edilir və bu iş yerləri ilkin peşə hazırlığının olmasını tələb etməyən ictimai faydalı xarakter daşıyırlar.

Bu proqram çərçivəsində ictimai işlərə cəlb olunanların hər biri ilə bağlanan əmək müqaviləsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində qeydiyyatdan keçirilərək rəsmiləşdirilir. Onu da qeyd edək ki, əmək müqavilələri işçilərlə 1 illik bağlanır və müvəqqəti xarakter daşıyır. Gələcəkdə isə işçinin istəyindən asılı olaraq müqavilə müddəti artırıla bilər.

Burada digər önəmli məsələ isə ondan ibarətdir ki, həmin şəxslərin sosial sığorta sistemində qeydiyyata alınması gələcəkdə onların pensiya hüquqlarının yaranmasına əsas yaradır. Həmçinin fərdi hesablarında pensiya kapitallarını artırmalarına imkan verir. İşçilərin əməkhaqqı, sosial sığortası, habelə işsizlikdən sığorta ödənişləri də “DOST İş Mərkəzi” tərəfindən həyata keçiriləcək.

Belə ki, “İşsizin DOSTu” proqramı çərçivəsində 40 minədək işaxtaran şəxs haqqı ödənilən ictimai işlərə cəlb edilib. Bu işlərə sosial xidmətlərin göstərilməsi, təmir, abadlaşdırma, ərazilərin ekoloji sağlamlaşdırılması, o cümlədən yaşıllaşdırma işləri, parklara, ictimai yerlərə qulluq və s. daxildir. Onu da qeyd edək ki, ilin əvvəlində layihə çərçivəsində 30 minədək işsiz insanın ictimai işlərə cəlb olunması nəzərdə tutulsa da, 8 ay müddətində bu rəqəm 40 minə qədər yüksəlib.

İctimai açıqlığın və şəffaflığın təmin edilməsi istiqamətində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qəbul etdiyi yeni qərara əsasən, “İşsizin DOSTu” proqramı çərçivəsində ictimai işlərlə təmin olunan işçilərin siyahısı yaxın günlərdə açıqlanacaq. Hazırda elektron proqram təminatı üzərində son tamamlama işləri aparılır.

**Yaqut Ağaşahqızı,**
***“İki sahil”***

# Bakının zəfər günü



I Dünya müharibəsinin yaratdığı məhrumiyyətlər, həm də Rusiyadakı hakimiyyət çevrilişləri Qafqazda, o cümlədən Azərbaycanda öz dərin təsirini göstərməkdə idi. Bir tərəfdən də Osmanlı - Sovet qoşunlarının üz-üzə dayandıqları Qafqaz cəbhəsi çox yaxında idi. Buna görə də öz milli taleyi uğrunda mübarizə meydanına girən Azərbaycandan istər türk cəbhəsi komandanlığına, istərsə də Türkiyə dövlətinə kömək üçün tez-tez müraciətlər olurdu. 1918-ci ilin martında silahlanmış ermənilərin Bakıda, ardınca digər bölgələrdə başladıqları soyqırımlar Osmanlı dövlətini nəhayət, qardaş xalqa gecikmədən hərbi yardım göstərməyə sövq etdi. Təcili olaraq Mosul cəbhəsindən göndərilən ilk yardımın ardınca mükəmməl hərbi yardım olaraq nəzərdə tutulan Qafqaz Türk İslam Ordusu hissələri Azərbaycana göndərildi. Nuru paşanın komandanlığı altında ilk dəstələr Cənubi Azərbaycan - Naxçıvan - Qarabağ yolu ilə Gəncəyə daxil olduğu tarixlə eyni günlərdə-mayın 28-də Tiflisdə Milli Şura Azərbaycanın "İstiqlal bəyannaməsi"ni elan etdi. Ölkədə möhkəmlənmiş bolşevik-daşnak qüvvələrinə, habelə sonra gələn ingilis müdaxiləçiləri ilə qarşı-qarşıya gələn Qafqaz İslam Ordusunun Gəncədən başlayan mücadilə yolu Bakıya istiqamətlənmişdi. Tərkibi əsasən ermənilərdən ibarət olan Kommuna qoşunlarını Bakıyadək sıxışdıran Qafqaz Türk İslam Ordusu Azərbaycanın əsarətdə qalan kənd və şəhərlərini bir-birinin ardınca azad edərək Bakıya yaxınlaşırdı.

Qafqaz Türk İslam Ordusu Göyçayda, Kürdəmirdə, Ağsuda, Hacıqabulda, Şamaxıda erməni-bolşevik qüvvələrini məğlubiyyətə uğradaraq avqustun əvvəllərində Bakının ətrafına yetişmişdi. Burada 45 gün davam edən mühasirə və çarpışmalar nəticəsində Qafqaz Türk İslam Ordusu erməni, bolşeviklərdən və ingilislərdən ibarət qüvvələri darmadağın edərək 1918-ci il sentyabrın 15-də Bakını xilas etdi. Türk qoşunları amansız döyüşlərdə o qədər rəşadət göstərirdilər ki, ingilis generalları heyran qalırdılar. Onlardan biri Londona göndərdiyi raportunda yazırdı ki, Bakını türklərdən qorumaq mümkün deyil. General Denstervil 120 nəfər itki verəndən sonra qoşununu gəmilərə yığıb Ənzəliyə getdi. Oradakı baş komandanlıq generalı dərhal cəzalandırıb vəzifəsindən uzaqlaşdırdı. Bolşeviklərə köməyə gəlmiş kazak diviziyasının komandiri, general Lazar Biçeraxov müqavimət göstərməyin mənası olmadığını görərək öz kazak dəstələrini Dağıstana geri çəkdi.

Beş aydan artıq sürən və 1200 nəfərdən artıq Osmanlı və Azərbaycan türkünün şəhid olduğu bu qanlı döyüşlər nəticəsində Azərbaycan təhlükədən xilas oldu və ölkənin məhv olmaq təhlükəsi aradan qalxdı. Bakıda yuva salmış bolşevik-daşnak tör-töküntülərinin bir qismi, o cümlədən 26 Bakı komissarları ingilislər tərəfindən aldadılaraq Türkmənistana aparıldılar və eser-menşeviklərə təslim edildilər. Ağqvardiyaçılar sentyabrın 20-də onları Ağcaqum səhrasında güllələdilər. Komunnarlardan yalnız komunnanın rəhbəri Stepan Şaumyan və Anastas Mikoyan qaçıb xarici ölkələrdə gizlənə bildilər. Sonradan məlum oldu ki, komissarlar qaçarkən özləri ilə Azərbaycanın külli miqdarda ləl- cəvahiratını da talayıb aparıblar.

Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyev Filarmoniya binasında keçirilən zəfər bayramında bir neçə qəhrəman türk paşasına və komandan Nuru paşaya qiymətli hədiyyələr təqdim etdi. O günlərdə Bakı əhalisinin sevincinin həddi-hüdudu yox idi. Əhali küçələrə çıxaraq bayram şənlikləri keçirirdi.

Mustafa Kamal Atatürkün planına görə, Azərbaycan ərazisində bir nəfər də erməni qalmamalı idi. Ona görə də bu planı həyata keçirmək üçün Nuru paşanı Bakı, Kazım Qarabəkir paşanı öz orduları ilə Naxçıvan istiqamətinə göndərmişdi. Qoşunların biri Bakıya qədər, digəri Naxçıvandan Göyçə gölünə qədər irəliləmişdi. Azad edilmiş yerlərdə gizlənərək qalan casuslar və təxribatçılar aşkar edilərək tutulub cəzalandırılırdılar. Ancaq Bakıda bir çox erməni və rus hərbçiləri qiyafələrini dəyişərək canlarını qurtara bilmişdilər. Arada yalnız Qarabağda və Qərbi Azərbaycanın bəzi bölgələrində azərbaycanlılarla inadlı döyüşlər aparan erməni silahlı dəstələri qalmışdı. Həmin bu ərəfədə Antanta dövlətləri I Dünya müharibəsindən məğlub durumda çıxmış Türkiyəyə təzyiq göstərdilər ki, öz qoşunlarını Qafqazdan geri çəksin.

Osmanlı qoşunları gedəndən sonra dövlət müstəqilliyimizi elan etmiş Azərbaycan Xalq Cümhuriyyətinin başçıları çətin şəraitdə olsalar da ölkəni idarə etməyə başladılar. Onlar islahatlar keçirir, təsisatlar yaradır, müdafiə tədbirləri görür, Azərbaycanı dünyada müstəqil dövlət kimi tanıtmağa çalışırdılar. Sovet hökumətinin rəhbərləri, erməni-daşnaq qüvvələri müstəqilliyimizi təhdid edirdilər. Bu təhdidlər 1920-ci ilin 28 aprelində hərbi müdaxilə və işğalla nəticələndi.

Azərbaycan xalqı təhlükəli məqamda ona qardaşlıq köməyi göstərmiş qəhrəman türk oğullarının xatiəsini həmişə əziz tutur və heç vaxt yaddan çıxarmır. Bu müqəddəs müharibədə igidliklə həlak olmuş türk əsgər və zabitlərinin müqəddəs məzarları həmişə gül-çiçəklə bəzədilir, hamı tərəfindən dərin məhəbbətlə ziyarət olunur.

**Vəli İlyasov, *"İki sahil"***

# İllüziyaçı

## VƏ YAXUD MƏZƏN OLSUN, ƏLİ KƏRİMLİ!

Azərbaycan siyasi sferasında heç zaman lider ola bilməyən, ən önəmli mərhələlərdə ikinci planda qalan yeganə iddialı fiqur AXCP sədri Əli Kərimlidir. Əvvəlcə mərhum Prezident Əbülfəz Elçibəyin kölgəsində qalmışdı, sonra Azərbaycan Milli İstiqlal Partiyasının sabiq sədri Etibar Məmmədovla Müsavatın sabiq başqanı İsa Qəmbərin. Fərqli şəxslərin kölgəsində qalmağa adət etmiş Əli Kərimli bu dəfə də sədri olduğu AXCP-nin keçmiş üzvü olan Cəmil Həsənlinin liderliyini qəbul edib. Nə isə, bu adamın fəaliyyəti haqqında "XALQ CƏBHƏSİNİN "YURD" HƏQİQƏTLƏRİ" kitabında təfərrüatı ilə məlumat var. Ona görə də Ə.Kərimlinin dünəni ilə işim yoxdur. Mən partiya sədrinin bugünkü fəaliyyətindən söz açacağam. Yox, səhv başa düşməyin, partiya sədri yazsam da onun fəaliyyətinin siyasətlə əlaqəsi yoxdur. Açıq desək, illüziyaçılıqla - aldatmaq, məsxərə, olmayan bir şeyi həqiqət kimi qəbul və təlqin etməklə məşğuldur. Bu adam Henri Anderson kimi papaqdan dovşan çıxara bilməsə də özündən yaxşı söz çıxara bilir. Bəzən "quş" da "çıxarır". Amma papaqdan yox, ağzından. Amma qınamalı deyil. Adam son zamanlar özünü siyasi fiqurdan çox "Stand up" (stəndap) şousunun ulduzu kimi aparır. Bir gün "YouTube" platformasında açılmış bir kanalda, o biri gün digər kanalda, səhəri gün "Facebook" platformasında canlı yayımda çıxış edir. Bunlar olmayanda da səhifəsində statuslar yazaraq şou adamlarına xas şəkildə gündəmdə qalmağa çalışır. Məsələn, AXCP sədri yazdığı bir statusunda xalqa hiper illüziya nümayiş etdirir. İddia edir ki, o, Sevinc Osmanqızının "YouTube" platformasındakı "Osmanqızı TV"də yeni nömrələrini nümayiş etdirəcəkmiş, Azərbaycan hökuməti kosmik müdaxilələrlə Sevinc Osmanqızının texniki avadanlıqlarını dağıdıb. Bizim oralarda ölünün qıdığını gətirən bu cür heyrətamiz təxəyyül məhsullarına şahid olunan adam heyrətini ifadə etmək üçün "ə" səsini nəfəsi çatdığı qədər uzadaraq, "BAY DƏDƏ!", deyir. Bu illüziyaçı olmayan bir şeyi həqiqət kimi qəbul və təlqin etməyə o qədər aludə olub ki, informasiya, kommunikasiya texnologiyaları barəsində geniş bilik və ya təsəvvürləri olan və ümid bağladığı yeni nəsilə nömrə gəlməyin mümkün olmadığını unudub. Yeni nəsil bilir ki, kosmik müdaxilə ilə mikrafonu, mikseri, videokameranı, hətta bilikçini (kompyuteri) də sıradan çıxarmaq mümkün deyil. Kosmik müdaxilə ilə uzaqbaşı interneti kəsmək olar ki, bunu da ABŞ kimi elektron təhlükəsizliyi pik səviyyədə təmin edilmiş ölkədə tətbiq etmək çox çətindir. Kənar müdaxilə ilə bilikçiyə virus salaraq proqramını qarışdırmaq da olar ki, onun üçün də kosmik müdaxiləyə ehtiyac yoxdur. Belə hal baş versə belə, günlərlə texnikasız qalmaq tələb olunmur. Ən azından ona görə ki, bilikçinin format olunması bir neçə saat vaxt aparır. Ayrıca nəzərə alsaq ki, hər bir bilikçini fərdi təhlükəsizlik proqramı ilə qorumaq mümkündür və böyük ehtimalla Sevinc Osmanqızı da bu cür proqramlardan istifadə edib, o zaman qərarımızı qətiləşdirə bilərik ki, Əli Kərimli və Sevinc Osmanqızı ağ yalan danışaraq özlərini məsxərə obyekti edirlər.



**Məhərrəm Ağalaroğlu**

Bu cür nömrələrlə ancaq yaşlı nəsli aldada bilər ki, onlar da illüziyaçının bütün nömrələrini 1990-cı ilin əvvəlindən bəri görüblər. Siz illüziyanın miqyasına diqqət edin. Bütün potensialı ilə Azərbaycan iqtidarını səriştəsizlikdə ittiham etdikləri halda, bu gün deyirlər ki, hökumət kosmik müdaxilələrlə bir jurnalistin texniki avadanlıqlarını sındırıb. Özü də harada, Amerika Birləşmiş Ştatlarında... Məzən olsun, Əli Kərimli! İndi nə deyirsən, Azərbaycan ABŞ-da kiminsə nələrinisə dağıdacaq qədər inkişaf edib, qüdrət sahibi olub, ya bütün sahələrdə inkişafdan geri qalıb?

Elə həmin gün yazdığı digər statusunda AXCP sədri iddia edir ki, Azərbaycan hökuməti demokratiyanı Cənubi Qafqazdan qovub çıxarmaq istəyir. Bu da onun növbəti olmayan bir şeyi həqiqət kimi təqdim etmək cəhdidir. Belə ki, Azərbaycanda demokratiyanın bütün prinsiplərinə əməl edilir, vətəndaşların bütün azadlıqları təmin olunur. Yəni hər kəs istədiyi sözü deyir, gileyini bildirir, seçkilərdə iştirak edib qəbul etdiyi şəxsi seçir.

*Emin Axundzadə:*

# Neft-kimya sektoruna yatırılan investisiyalar ölkə iqtisadiyyatına əlavə dəyər qazandırır

Bu ilin 7 ayı ərzində kimya sənayesi məhsullarının ixracı 57.2 milyon dollar təşkil edib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 40.9 faiz artım deməkdir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"nın 2019-cu ilin avqust buraxılışında bu barədə məlumat verilib.

Cari ilin ikinci rübündə SOCAR tərəfindən ixrac olunan neft və neft-kimya məhsullarının miqdarı isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 48% artıb. **Enerji məsələləri üzrə ekspert, beynəlxalq əlaqələr üzrə fəlsəfə doktoru Emin Axundzadə "İki sahil" qəzetinə açıqlamasında bildirib ki,** neft və neft-kimya məhsullarında ixrac həcmlərinin artması ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edir. Çünki xam neft və qaz emal olunduqda onun dəyəri bir neçə dəfə artır. Bu da SOCAR-ın, bütövlükdə Azərbaycanın gəlirlərinin daha da artmasına səbəb olur.

Neft və neft-kimya məhsullarında ixrac həcmlərinin kəskin artması əsasən "SOCAR-Polimer" layihəsi çərçivəsində poli-propilen, yüksəksıxlıqlı polietilen və Karbamid zavodlarının istismara verilməsi ilə əlaqəlidir: "Bu zavodlarda istehsalatın başlanması və mərhələli olaraq istehsal həcmlərinin artması, zavodların ixrac potensialının yüksəlməsinə səbəb olmuşdur. Bu gün zavodlarda istehsal olunan məhsullar dünyanın müxtəlif ölkələrinə ixrac edilir. 1 avqust 2019-cu il tarixinə kimi təqribən 45 min ton karbamid gübrələri Türkiyə əsas olmaqla Bolqarıstan, Rusiya, Rumıniya və Ukrayna bazarlarına ixrac olunub. Eyni zamanda, 52 min ton polimer məhsulları Türkiyə, Rusiya, Ukrayna, Belarus, Polşa və Litva kimi ölkələrə ixrac edilib."

E.Axundzadə onu da qeyd edib ki, "SOCAR-Metanol" zavodunda da istehsal olunan metanolun həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə təxminən 3.3 dəfə artıb: "Bu zavodda istehsal olunan metanolun təqribən 97 faizi xarici ölkələrə ixrac olunur. Bu da öz növbəsində ixrac həcminin artımına təsir göstərir. Bütün bunlar öz növbəsində idxaldan asılılığın azaldılması, ixracatın şaxələndirilməsi və ölkəyə xarici valyuta axınının təmin edilməsi baxımından strateji əhəmiyyət daşıyır."



Ekspert vurğulayıb ki, ümumilikdə dünyada neft-neft kimya məhsullarına böyük tələbat var: "Dünya ölkələrində istifadə olunan gübrələrin təqribən 75 faizi azot gübrələrindən əmələ gəlir. Azot gübrələri içərisində isə ən keyfiyyətlisi karbamid gübrəsi sayılır. Çünki karbamidin tərkibində 46,3% azot mövcuddur. Tədqiqatlar göstərir ki, torpağa verilən hər ton azot əlavə olaraq 10-15 ton buğda, 30-40 ton şəkər çuğunduru almağa, habelə məhsulun keyfiyyətini daha da yaxşılaşdırmağa səbəb olur. Bu səbəbdən bu sektor dünya bazarında sürətli şəkildə inkişaf edir. Son 4 ilə nəzər salsaq görərik ki, dünya birjalarında karbamidin qiyməti təqribən 40 faiz artıb və bu tendensiya davam edir. Təbii olaraq bu da bizim gələcəkdə ixrac gəlirlərimizin daha da artmasına səbəb ola bilər."

E.Axundzadə onu da diqqətə çatdırıb ki, dünya bazarında neft-kimya sektorunda qiymətlərdə neft sektorunda olduğu qədər dalğalanmalar müşahidə edilmir. Bu da bu sektorun cazibəsini artırır. Azərbaycanın da emal sektoruna, neft-kimya sektoruna yatırdığı investisiyalar artıq öz bəhrəsini verməkdədir: "Neft-kimya sektorunun əsas xammalı neft olduğuna görə, neftin qiymətinin aşağı düşməsi, əslində bu sektorun gəlir marjasının daha da artmasına səbəb olur."

Emin Axundzadə hesab edir ki, ixrac olunan neft-kimya məhsullarının miqdarının ötən ilin müvafiq dövrü ilə müqayisədə çox olması Azərbaycan iqtisadiyyatında gəlirlərin artmasına, əlavə dəyərin yaranmasına öz töhfəsini verir.

**Orxan Vahidoğlu, *"İki sahil"***

DÜŞÜNCƏLƏR

# Səngərdə döyüş əzmi, qələbə ruhu gördüm

**Mən eşitmişəm də, duymuşam da qazilərin özü, şəhidlərin ruhu deyir ki, hərbi anda, dövlətə, dövlətçiliyə sədaqətdi Vətən sevgisi, yerə-göyə sığmayan, sığışmayan qətiyyətdi Vətən sevgisi. Bu kəlmələr ön xətdə daha həssaslıqla eşidilir, duyulur.**



"Açıq qapı" günündə hərbi hissənin nəzarət-buraxılış məntəqəsinin qarşısında təzə tanış olduqlarınla da səmimiyyətlə, könül xoşluğuyla kəlmələşirsən, ön xətdə belə kəlmələşmələr daha düşündürücü olur; təmas xəttində bütün söhbətlər Vətən, torpaq kəlmələriylə tamamlanır. Bütün söhbətlərin mahiyyəti Vətənə sevgidir. Bu mahiyyət qazilərdən eşitdiklərimin, şəhidlərin ruhundan duyduqlarımın eynidir. Mən də hərbi xidmət ifadəsini Vətən sevgisi ifadəsinin eyni bilənlərin sırasındayam. Bu qənaəti səngərdə əsgərlərə də deyirəm. Zabit əsgərlərə baxır, yəni fikrinizi bildirin. Baxır və deyir ki, qazilərin özü, şəhidlərin döyüş yolu bizim hərbi xidmət amalımızın mənəvi söykənclərindəndir. Biz "Necə xidmət etməli?" - sualına cavab olaraq onları deyərəm.

Söhbətə "Açıq qapı" günü ilə başlamışdıq, mahiyyət baxımından ordu-ictimaiyyət münasibətlərinin daha da dərinləşməsindən danışmışdıq. Deyilən fikirlərin hamısı təsdiqləyirdi ki, ordu xalqa arxalanır. Arada yenə Vətənə, orduya gərəkli kəlmələr gəzişmişdi. Bu kəlmələrin ifadə etdiyi fikirlərin davamı kimi yenə həmin başlanğıca dönmüşdük. Dedim ki, "Açıq qapı" günündə yaşı 90-nı haxlayan ağsaqqaldan eşitdiyim kəlmələri qələbə gününəcən unutmayacam: Yurd qədri bilən kəsə ata ocağından, doğma yurdundan on-on beş addım o tərəf də qürbətdi. Ya zəlzələdən, ya vəlvələdən, isti ocağından, dolu bucağından didərgin düşmək ruhun candan ayrılmağının başlanğıcıdı. Can üzən, ruh sarsıdan bu həsrətin acığına yaşayacam, ay oğul, yaşayacağıq. Mən ömürün də gözəlini sevirəm, ölümün də. Əlim evimin daşına-divarına dəyməmiş ölümə can verməyrəm...". ağsaqqalın hərbi hissənin Nəzarət-buraxılış məntəqəsinin qarşısında özünün dodaqlarını yandıran, bizim düşüncələrimizi qarsılayan kəlmələri daş-daş dikəldən ev-eşiyə aşırı, bəşəri, yaşarı sevginin ifadəsi kimi dinlənilmişdi.

Əsgərlərə deyirəm ki, o ağsaqqalın həsrətini siz sonlandıracaqsınız... Səngərə bir anlığa kövrəkliklə qoşalaşmış düşündürücü sükut çökür. Başqa bir zamanda başqa hərbi hissədə illərin sıxılcımını yaşayan qaçqın atadan eşitdiklərimi də xatırladıram: Son nəfəsim doğma ocağıma qismət olsa, dünyadan heç bir arzumanım qalmaz.

Bayaqkı düşündürücü sükutun davamını yaşamaqdayıq. Bu kəlmələrin nə kəlmələr olduğunu, niyə deyildiyini əsgərlərin düyünlənən yumruqları deyir: Az qalıb. Ali Baş Komandanın döyüş əmri, döyüşlər və qələbə. Həmin o ağsaqqalın da, qaçqın atanın da həsrətinin sonu...

"Yaşı 90-nı haxlayan qaçqın ağsaqqalı "Açıq qapı" günü hərbi hissəyə təkcə oğlunun nəvəsiylə - nəticəsiylə görüşmək istəyi gətirməmişdi. Əsgərlərdən dədə yurduna qayıtmaq istəyinin ərki, bu ərkin səmimiyyəti gətirmişdi" - deyirəm. Zabit sözümə qüvvət kimi deyir:

-Xidmət etdiyim hərbi hissələrdə əsgər babalarıyla da çox söhbətlərim olub. Deyiblər - dinləmişik, demişik - dinləyiblər. Əksəriyyəti hərbi hissəyə məhz sizin dediyiniz həmin səmimi ərkə görə gəldiyini bildirir. "Hər gəlişimizdə əsgərlərimizin yerişini, duruşunu, baxışını görürük, kəlmələşirik, inamımız, güvəncimiz daha da artır...", - deyiblər. Onu da deyiblər ki, bizi bu inam yaşadır, yəni dədə yurdunun həsrətini çəkənlərin güvənci Azərbaycan əsgəridi...

Səngərdə bu güvəncin də, əsgərlərin döyüş əzminin də, qələbə ruhunun da işığını aydınlığıyla görürəm...

Əsgərlərdən biri deyir ki, bu yaxınlarda tərxis olunan əsgərlərdən biri atasının xatirələrini xatırladırdı. "Atam Zənginlanlı günlərindən, Zəngilanın müdafiəsindən, döyüşlərdən danışanda gözləri dolurdu, deyirdi ki, ora qayıdacağım gün dünyaya təzədən gəldiyim gün deyərdim. Bütün zəngilanlılar da mənim kimi...", - deyirdi. Atalar yurd həsrətini tək yaşamır. Bu elə həsrətdi ki, dədə yurdunun sıxıntılarını görməyənlər də çəkir. Onları bu sıxıntılardan biz qurtaracağıq. "Azərbaycan əsgəri buna qadirdi..."

Əsgərin dediklərini döyüş əzminin qələbə ruhunun ifadəsi kimi dinləyirəm. O kəlmələrin Azərbaycan əsgərinin adından deyildiyinə zərrəcə şübhəm yoxdu. Bu inam bu səngərin zəmanətiylə Azərbaycan əsgərinə, Azərbaycan Ordusunun qüdrətinə inamdı.

Əsgərin dedikləri məni də, əsgər yoldaşlarını da, komandirini də duyğulandırır. Bu, adi xatırlama deyil, bu xatırlamanı Azərbaycan əsgərinin hərbi xidmətinin müharibəni sonlandıracağına inam, inama qətiyyət bilirik. Bu qətiyyət 2016-cı ilin aprel döyüşlərinin qətiyyətindən zərrəcə fərqlənmir; o qətiyyətin bu səviyyədə yaşadılması döyüş əzmidi - səngərdə gördüyüm bu qətiyyətin duruşunda bir döyüş əzmi görürük.

-Səngərdə gördüyümüz döyüş zəmini qələbə ruhu bilirəm, - deyirəm. Zabit bir anlığa qarşı tərəfə baxır və əsgərlərə xitabən deyir:

-Belədirmi? Əsgərlərin sayı qədər "Elədir!" - kəlməsi eşidilir...

Yadıma düşür ki, belə bir səslənişi səngərdə Azərbaycan Ordusunun yaranmasının 100 iliyinə həsr olunmuş möhtəşəm paraddan az sonra da eşitmişdim. Onda səngərli söhbətdə əsgərlərdən biri paradda göstərilən ən müasir texnikaların, qurğuların, silahların ordunun güc göstəricisi kimi izlənildiyini demişdi. Əsgərin səsində duyulan qürur düşüncələrimizi özünə çəkmişdi. Zabit əsgərlərə xitabən demişdi ki, yoldaşınızın fikrinə nə deyirsiniz. Əsgərlərin hamısı bir ağızdan "Elədir", - demişdi. Bu iki məqam - ayrı-ayrı səngərlərdə eşidilən eyni kəlmə - arasında ruh doğmalığı görürəm və hər iki halda eyni kəlməni min illərin o üzündən boy göstərən ruhun dedizdirdiyini bildirirəm. Zabit razılıqla gülümsünür və könlümüzə yatan bir fikir deyir:

-Bəlkə dediyiniz məqamlara ayrılıqda eyni ruhun zərrəsi deyək?

-Düz sözü sağlam məntiqi etiraf etmək də milli ruha sədaqətdi, - deyirəm, yəni bu fikirlə razılaşmamaq günahdı.

Komandirlərinin səsləndirdiyi fikrin belə dəyərləndirilməsi əsgərlərin könül xoşluğuna dönür. Belə könül xoşluğuyla hərdən bir baxış məsafəsində görünənlərə - düşmənin mövqelərinə, hərdən də göy üzünə baxan əsgərlərin yaşadığı ovqatı səngərin döyüş əzmi, qələbə ruhu bilirəm. Bu əzm, bu ruh Ali Baş Komandanın döyüş əmriylə, döyüş əmri qələbəylə tamamlanacaq - torpaqlarımız işğaldan azad ediləcək.

Ötənlərdə milli ruhumuzun qadirliyini bayraqlaşdıraraq yazmışdım: Bu ruhun zərrəsi olmaq ad səadətdi, Vətən! Səngərdə gördüyüm ovqatdöyüş əzmi, qələbə ruhu bu ifadəni yadıma salır; səngərdə gördüyüm ruh həmin ruhun zərrəsidi. Bu ölçüyəgəlməz zərrədə qüdrət olduğuna yerə-göyə inandığım qədər inanıram.

Məni səngərdən əsgərlərin döyüş əzmi, qələbə ruhu uğurlayır...

...Əsgərlərə "Açıq qapı" günündə yaşı 90-nı aşan ağsaqqaldan eşitdiklərimi xatırlatmışdım. Onda səngərə bir anlığa kövrəkliklə qoşalaşmış düşündürücü sükut çökmüşdü. O sükutu yox, o sükutu yaradan səbəbi, o səbəbə səbəb olanların sıxıntılarını özümlə aparıram; yaxın vaxtlarda sərhədlərimiz daxilində belə sükut olmayacaq. Bu əminlik səngərdə gördüyüm döyüş əzminin, qələbə ruhunun əminliyidir... Sərin-sərin əsən yellər, ağacların budağından sürüşən yellər səngərə aparan yolun sağını-solunu sığallayır...

Rəşid Faxralı



# Əli Kərimlinin yalanları və reallıq

Mənsumə Babayeva

Son illər dağıdıcı müxalifət düşərgəsində siyasi mədəniyyətsizlik tüğyan edir. Anormal, sosial şəbəkələr səviyyəsində qəhrəman kimi görünməyə hesablanmış fəaliyyətlərin önündə gedənlərdən biri Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Əli Kərimlidir. O, Əli Kərimli ki, bu gün özünü cəmiyyətə vətənpərvər, millətçi, guya xalqın, ölkənin, dövlətin, torpağın qeydinə qalan biri kimi təqdim etməyə çalışır.

İndi də AXCP sədri Əli Kərimli sosial şəbəkələrdə yaxın tariximizi təhrif edərək guya ulu öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanın yeddi rayonunun işğal olduğunu iddia etməyə başlayıb. Təbii ki, bu iddiaların yalan olduğunu Əli Kərimli özü də yaxşı bilir. Sadəcə olaraq o günlərin "unudulduğunu" zənn edən AXCP sədri bu yalanları ilə siyasi divident əldə etməyə çalışır.

Həmin dövrün canlı şahidləri yaxşı xatırlayırlar ki, Dağlıq Qarabağ və ətraf yeddi rayon ümummilli lider Heydər Əliyev Azərbaycanın rəsmən prezidenti seçilməmişdən əvvəl işğal edilib. Həmin vaxtlarda isə Azərbaycanın legitim prezidenti Əbülfəz Elçibəy idi. 1993-cü ilin 15 iyununda xalqın təkidi tələbi ilə hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev Azərbaycanı düşdüyü çıxılmaz vəziyyətdən xilas etmək üçün Bakıya gəlmiş və Ali Sovetin sədri seçilmişdi. Həmin dövrdə baş verənlər, AXC-Müsavat hakimiyyətinin qısa müddətdə ölkəni və xalqı uçuruma gətirib çıxarması, hətta Azərbaycanın dövlət suverenliyinin təhdid olunması faktları hər kəsin yaddaşındadır. Həmin dövrdə ölkədə bütün güc strukturları parlamentin sədrinə yox, formal olaraq, legitim prezidentə, yəni Əbülfəz Elçibəyə, faktiki olaraq isə baş nazirə tabe idi. Parlamentin sədri kimi ulu öndər Heydər Əliyevə tabe olan nə ordu, nə də heç bir güc strukturu yox idi. Paytaxtı tərk etmiş legitim prezidentin tərəfdarı olan deputatlar və ona sadiq məmur korpusu tərəfindən ulu öndər Heydər Əliyevin hətta parlamentin sədri kimi səlahiyyətlərinin icrasına da hüquqi və qeyri-hüquqi manelər yaradılırdı.

Bu günlərdə Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov özünün "Facebook" səhifəsində yazdığı statusda qeyd edib ki, AXC-Müsavat hakimiyyətinin ölkədə yaratdığı bərbad vəziyyət orduda daha acınacaqlı hal almışdı: "Ordunun maddi-texniki təminatı, hərbi arsenalı yox idi, ordunun döyüş ruhunu saxlamaq üçün arxa cəbhədə milli birlik də təmin edilməmişdi. Ön cəbhədə döyüşlərin getdiyi vaxt arxa cəbhədə vəzifə davası aparılır, siyasi qruplaşmalar arasında açıq silahlı mübarizə gedirdi. Silahlı qüvvələr daxilindəki müxtəlif birləşmələr də ayrı-ayrı siyasi və maraq qruplarının tabeliyində idi. Paytaxtda vəzifə davasına çıxan siyasi qruplar daha çox pay qoparmaq üçün həmin silahlı birləşmələri cəbhə xəttindən geri çəkərək Bakıya gətirir, siyasi mübarizədə, vəzifə bölgüsündə təzyiq aləti kimi istifadə edirdilər. Hətta cəbhədə döyüşlərin getdiyi vaxt Surət Hüseynovun, İsgəndər Həmidovun, Rəhim Qazıyevin, Rövşən Cavadovun və digərlərinin silahlı dəstələrinin Bakı küçələrində avtomatlarla gəzdiyini, insanlara divan tutduğunu, vəzifə bölgüsündə daha çox pay qoparmaq üçün paytaxtı hərbi poliqona çevirdiklərini də xalq unutmayıb.Silahlı birləşmələr Bakıda vəzifə davasında iştirak etdiyi vaxt isə cəbhə müdafiəsiz qalmışdı. Nəticədə erməni işğalçıları Dağlıq Qarabağla birgə ətraf yeddi rayonu da zəbt etməyə nail oldular.Tarixi saxtalaşdırmağa çalışanlar cavab versinlər: Belə bir vəziyyətdə ulu öndər Heydər Əliyev hansı ordu, hansı güc strukturu və hansı səlahiyyətlə ərazi itkilərinin qarşını ala bilərdi?".

"Parlamentin sədri kimi heç bir güc strukturuna çıxışı olmayan və buna görə də işğalın qarşısını ala bilməyən ulu öndər Heydər Əliyev Azərbaycanı etnik və regional zəmində parçalanma təhlükəsindən, vətəndaş müharibəsi və xaosdan xilas edə bildi. Bakıya qayıtdıqdan sonra cəmi 6 ay ərzində ulu öndər Heydər Əliyevin Azərbaycanın xilası üçün nələr etdiyini isə xalqımız unutmayıb", - deyə Ə.Həsənov bildirib.

# Politoloq: Maaş və pensiya artımları dinamik prosesdir



Cənab Prezident İlham Əliyevin minimum əməkhaqqının artırılması ilə bağlı Sərəncamı 950 min nəfərə yaxın insana (o cümlədən dövlət sektoru üzrə 600 min, özəl sektor üzrə 350 min nəfərin) şamil ediləcək. Artıq ölkəmizdə 250 manatdan aşağı əməkhaqqı alan olmayacaq. Minimum aylıq əməkhaqqının artırılması onu deməyə əsas verir ki, Prezident İlham Əliyev daim Azərbaycan vətəndaşlarının problemlərini diqqətdə saxlayır. Sosial sferaya böyük diqqət göstərir. Həmçinin dövlət başçısının 2019-cu il 18 iyun tarixli digər sərəncamlarına əsasən sentyabrın 1-dən ölkəmizdə dövlət sektorunda çalışanların əməkhaqlarında 20-50 faiz artımlar edilib. Bu, Azərbaycan vətəndaşları üçün çox böyük maddi və mənəvi dəstəkdir. Bir sözlə, bu sərəncamlar əhalinin rifah halını xeyli yaxşılaşdıracaq.

"Prezident İlham Əliyevin minimum əməkhaqqının artırılması ilə bağlı 2019-cu il 18 iyun tarixli Sərəncamı tam zamanında verilmiş qərardır. Bu Sərəncam əhalinin bütün qruplarının maliyyəsinə müsbət təsir göstərəcək. Minimum əmək haqqının artırılması əhalinin sosial təminatı baxımından çox vacibdir". Bu fikri politoloq Fikrət Sadıqov qəzetimizə açıqlamasında bildirdi.

F.Sadıqov söylədi ki, ölkə başçısı İlham Əliyev tərəfindən artıq ikinci sosial paket qəbul olunub və sentyabrın 1-dən bunun icrasına başlanılıb: "Ümumilikdə, cənab Prezident İlham Əliyev tərəfindən həyata keçirilən sosial siyasət xalqımızın rifah halının, ən əsası isə imkansız ailələrin, sosial qayğıya ehtiyacı olanların həyat şəraitinin daha da yaxşılaşdırılmasına hesablanıb. Bu baxımdan hesab edirəm ki, ölkə rəhbərinin bu sərəncamları çox düzgün və vaxtında verilmiş bir qərarlardır. Belə ki, sentyabrın 1-dən ölkəmizdə minimum əməkhaqqı 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılıb, həmçinin dövlət sektorunda çalışanların əməkhaqlarında 20-50 faiz artımlar edilib. Yaxın zamanda Azərbaycan xalqı bunu öz həyatında hiss edəcək. Təbii ki, bu, dinamik prosesdir və müəyyən zaman keçdikdən sonra yenə də belə addımlar atılacaq. Ümumi göstəricilərə baxdıqda və keçmiş SSRİ respublikaları ilə müqayisə etdikdə bunu ən yüksək göstəricilərdən biri kimi hesab etmək olar".

F.Sadıqov qeyd etdi ki, cənab Prezident İlham Əliyevin həyata keçirdiyi ikinci sosial paketin tərkib hissəsi kimi minimum əməkhaqqının və dövlət sektorunda işləyənlərin əməkhaqlarının artımı ümumilikdə 1 milyon 350 min insanın gəlirlərinin əhəmiyyətli şəkildə artması ilə nəticələnib: "Prezident tərəfindən imzalanan bu sərəncamlar çox müdrik, humanist, uzaqgörən, xalqın maraqlarına və mənafeyinə xidmət edən sosial paketdir. Bu, həqiqətən xalqın sosial rifahının yaxşılaşdırılması sahəsində inqilabi dəyişikliklərdir. Sözügedən sosial paketlə bağlı dövlət büdcəsindən iki il ərzində 5,3 milyard manat vəsait ayrılacaq. Bütövlükdə bu sosial paket Azərbaycan iqtidarının, cənab İlham Əliyevin yürütdüyü siyasətin əsas elementlərindən biridir".

✍ **Cavid Əkbərov, *"İki sahil"***

# Dağıdıcılar xalqı yox, öz şəxsi maraqlarını düşünürlər

"Sosial şəbəkələrdə saxta profillərdən istifadə edərək dövlətçiliyimizə, xalqa və ayrı-ayrı insanlara qarşı qarayaxma kampaniyasının aparılması bir daha göstərir ki, dağıdıcı müxalifət və xaricdəki anti-Azərbaycan qüvvələr özlərinin dediyinin əksinə olaraq heç də milləti yox, tam əksinə, öz şəxsi mənafelərini düşünürlər. Bunun üçün də xarici havadarlarının çaldığı bütün havalara oynayırlar".

**Bu sözləri Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev "İki sahil" qəzetinə açıqlamasında söylədi.**



Azərbaycanda söz, mətbuat, fikir, vicdan azadlığının təmin olunduğunu deyən müsahibimiz bildirdi ki, buna baxmayaraq hər şeyin bir həddi, çərçivəsi var: "Düzdür, istənilən insan öz fikrini açıq şəkildə ifadə etmək imkanına malikdir. Eyni zamanda, insanların siyasi hüquq və azadlıqlarının tam təmin olunduğu ölkələrdə vətəndaşlar ayrı-ayrı siyasi təşkilatlarda birləşə bilirlər. Ölkəmizdə bu gün çoxlu sayda müxalifət partiyaları var. Lakin bu, o demək deyil ki, kim istəsə kimisə təhqir edib, şər-böhtan ata bilər. Əslində, xalq onların dediklərini qətiyyən ciddiyə almır. Ortada reallıq var: Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasət xalqımız tərəfindən birmənalı şəkildə dəstəklənir. Bunun üçün də ciddi əsaslar var. Azərbaycanın sürətli inkişafı, müasirləşmə, yeniləşmə, insanların təhlükəsizliyinin qorunması, rifah halının yüksəldilməsi və onlara verilən dəyər bu əsaslardan yalnız bir qismidir".

Seyfəddin Əliyev bildirdi ki, son bir neçə ay ərzində Prezident İlham Əliyevin sərəncamları ilə müxtəlif kateqoriyadan olan insanların rifahının yaxşılaşdırılması ilə bağlı ciddi addımlar atılıb: "Əməkhaqları, pensiyalar, müavinətlər, tələbə təqaüdlərinin artırılmasına dövlət tərəfindən böyük vəsaitlər xərclənir. Bütün bunlar birmənalı şəkildə insanların hakimiyyətə olan münasibətinin daha da yaxşılaşması üçün zəmin yaradır. Tam qətiyyətlə deyə bilərik ki, Azərbaycan vətəndaşları mütləq çoxluq etibarilə Prezident İlham Əliyevi, onun həyata keçirdiyi siyasəti dəstəkləyirlər. Bu da təbii olaraq hakimiyyətdə olan partiyanın elektoratının sayını artırır. Belə olan halda isə müxalifətin elektoratı azalır. Müxalifət öz elektoratını formalaşdırıb möhkəmləndirmək üçün heç bir konsepsiya və strategiya ortaya qoya bilmir. Bir neçə ildir ki, əks qütbdə olanlar normal bir siyasi platforma müəyyənləşdirib əsas hədəf və niyyətlərini insanlara çatdıra bilməyiblər. Buna görə də Azərbaycan cəmiyyətində bugünkü müxalifətə inam qalmayıb. Müxalifət varlığını xalqa yanlış yolla çatdırmaq istəyir. Söyüş, təhqir, böhtan kampaniyası ilə heç bir nailiyyət əldə olunmur. Müasir dünyada mübarizə tam sivil yolla aparılmalıdır. Onların tutduğu yol nəinki dağıdıcılara dividentlər gətirir, əksinə az-çox olan tərəfdarlarının sayı daha da azalır".

Son zamanlar sosial şəbəkələrdə saxta profillərlə mənəvi terror yolunu seçənlərə də münasibət bildirən təşkilat sədri vurğuladı ki, bu gün müasir texnologiyaların yaratdığı imkanlardan bəzi şəxslər çirkin məqsədləri üçün istifadə edirlər: "Bələləri sosial şəbəkələrdə saxta profillər, yalançı adlarla hakimiyyətdə olanları təhqir edir, cəmiyyətin hörmətli üzvlərini təhqirə, mənəvi terrora məruz qoyurlar. İnsanlar onların kimlər tərəfindən təhqir olunduğunu, mənəvi terrora məruz qaldığını bilmirlər. Məhz bu məqam Azərbaycan cəmiyyətində ciddi narazılıq mənbəyinə çevrilib. Biz hər şeydən əvvəl bir vətəndaş olaraq bunu qətiyyətlə pisləyirik. Təhqir, böhtan və saxta profillərlə hakimiyyət uğrunda mübarizə aparmaq mümkün deyil. Əgər hakimiyyət uğrunda mübarizə aparırsansa hər şeydən əvvəl özün düzgün olmalı, insan hüquqlarına hörmətlə yanaşmalısan ki, inanıb arxanca gələn olsun".

✍ **Taleh Bağırov, *"İki sahil"***

## VİZANIN LƏĞVİ:

# Qarşılıqlı münasibətlərin daha da yaxşılaşmasına töhfə

**Xəbər verildiyi kimi, sentyabrın 1-dən Azərbaycan Türkiyə vətəndaşları üçün viza rejimini ləğv edib. Artıq qüvvəyə minən qərara əsasən, Azərbaycana 30 gün müddətində səfər etmək istəyən Türkiyə Respublikasının ümumvətəndaş pasportuna malik vətəndaşları üçün viza tələbi ləğv olunub. Həmçinin Türkiyə Respublikası Hökumətinin qərarına əsasən, bu ölkəyə 30 günədək səfər edən Azərbaycan Respublikası vətəndaşları da viza tələbindən azad ediliblər.**

Viza tələbinin ləğvi qərarı Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın səyləri ilə uğurla inkişaf edən qardaşlıq münasibətlərinin məntiqi nəticəsidir. Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kimi xarakterizə etdiyi ölkələrimiz arasında əldə olunan yeni razılaşmalar, imzalanan müqavilələr bir daha xalqlarımızın dostluq, qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsindən, onun sarsılmazlığından xəbər verir.

Azərbaycan və Türkiyə arasında qardaşlıq münasibətlərinin inkişafının nəticəsidir ki, viza sahəsindəki əməkdaşlıqda yeni səhifə açılıb, hər iki ölkə vətəndaşlarının sərbəst gediş-gəlişinin təmin edilməsinin asanlaşdırılmasına şərait yaranıb. Qeyd edək ki, 2007-ci ildə Türkiyə Azərbaycan vətəndaşları üçün viza rejimini təktərəfli şəkildə ləğv edib. Sentyabrdan etibarən isə viza rejiminin ikitərəfli ləğvi hər iki ölkə arasında turistlərin sərbəst gəliş-gedişini təmin edəcəkdir.

Azərbaycanın Xarici İşlər Nazirliyinin sözçüsü Leyla Abdullayeva viza tətbiqinin ləğvinin iki ölkə arasında qarşılıqlı münasibətlərin daha da yaxşılaşmasına töhfə verəcəyini bəyan edib. Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu isə "Twitter" hesabında "Bir millət, iki dövlətə yaraşan oldu!" paylaşımını edib. Eyni zamanda Türkiyəli nazir öz "Twitter"ində Azərbaycan Xarici İşlər Nazirliyinin Türkiyə Xarici İşlər Nazirliyinə göndərdiyi sənədi də paylaşıb. Sənəddə deyilir ki, Azərbaycana 30 günədək səfər etmək istəyən Türkiyə vətəndaşları üçün sentyabrın 1-dən viza tələbi qarşılıqlı qaydada ləğv edilir.



Artıq bir neçə gündür ki, ölkəmizə gələn Türkiyə vətəndaşları yalnız xarici pasportlarını təqdim etməklə sərhədi keçirlər. Vizasız rejimdən ilk yararlanan isə Türkiyənin Qaziantep şəhərindən olan Yılmaz Dilsiz olub. O, KİV-ə açıqlamasında bildirib ki, bu gün Azərbaycan Türkiyə vətəndaşları üçün viza rejiminin ləğv olunduğu önəmli bir gündür: "Əslində bir neçə ay öncə gəlməyi planlaşdırırdım. Viza rejiminin ləğvini eşidəndə isə sərhədi keçmək üçün avqustun 31-də gecə saat 12-ni gözlədim. Mən də bu məqsədlə ailəmlə birlikdə Türkiyədən Bakıya gəldim. Azərbaycana salam olsun. Bu, mənim Azərbaycana ilk səfərimdir."

Türkiyəli qonağımızın etdiyi jesti isə maraqla qarşılanıb. Belə ki, o, avtomobilini Azərbaycan və Türkiyə bayraqları ilə bəzəyib, başlığında "Türk Dünyasının Kahramanı" yazılmış, Milli Qəhrəman Mübariz İbrahimovun şəkli yapışdırıb.

Bəli, ulu öndər Heydər Əliyevin illər öncə söylədiyi "Biz bir millət, iki dövlətik" müdrik kəlamı bir daha real həyatda öz təsdiqini tapdı. Dünyada bir-birinin dövlət müstəqilliyini Azərbaycan və Türkiyə qədər dəstəkləyən, həmrəylik göstərən başqa bir nümunə tapmaq çətindir. Dostluq, qarşılıqlı etimad, səmimi münasibət, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri bu gün bütün dünyaya örnəkdir.

✍ **Yaqut Ağaşahqızı, *"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azneft" İstehsalat Birliyi

**elektrik mallarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11156AM-19) müddətini uzadaraq yenidən elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifinin təminatı (forma əsas şərtlər toplusunda veriləcəkdir) ;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 19.09.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır. Göstərilmiş tarixdən gec edilmiş ödəniş və müraciətə baxılmayacaqdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son günündək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 26.09.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri müvafiq etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə birlikdə qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər istəyənlər 59 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafada göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X
* Hesab nömrəsi: USD
Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD
* Hesab nömrəsi: EUR
Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR
* Hesab nömrəsi: GBR
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

* Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, Lot nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin şərtlər toplusunda qeyd olunan 90 gün ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***

*I. İddiaçının müsabiqə təklifinin təminatı 0000 AZN və ya ona ekvivalent dəyərdə ABŞ Dolları və Avro ilə tələb olunur. (Tələb olunmur)*

*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

*V. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.*

*VI. Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.*

*VII. Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.*

**VI. Satınalan təşkilatın ünvanı:**

AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti 73; SOCAR, "Azneft" İB
**Əlaqələndirici şəxs:** Əsgərov Kamil
Satınalmalar və Təchizat şöbəsi, ekspert
korporativ telefon nömrəsi: +99412 521 00 00 - 11 381 (daxili)
korporativ mobil nömrəsi: +99450 841 13 81
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı: kamil.asgerov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 26.09.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00 da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləbiləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azneft" İstehsalat Birliyi

**Avtomatika avadanlıqlarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11135AM-19 ) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 01.10.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son günündək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 08.10.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 354 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X
Intermediary Bank:Deutsche Bank Trust
Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD
Intermediary Bank:Commerzbank AG,
Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsini 90 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.V. Müsabiqə təklifinin təminatı :

*I. İddiaçının müsabiqə üçün 8500 AZN və ya ekvivalent məbləğdə sərbəst dönərli valyutada müsabiqənin təklifi üzrə bank zəmanəti tələb olunur.*

*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

***V. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.***

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***VI. Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VII. Satınalan təşkilatın ünvanı:***

AZ 1000, Bakı şəhəri, Səbail rayonu, Neftçilər pr-ti 73
"Azneft" İstehsalat Birliyinin inzibati binası
**Əlaqələndirici şəxs:**
Sadıqov Samir
Satınalma və təchizat şöbəsinin böyük eksperti
Telefon nömrəsi: +99 412 521-00- 00 (11-386)
Elektron ünvan: samir.sadigov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 08.10.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləbiləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İB-nin Satınalmalar qrupu**

VAHİD AZƏRBAYCAN UĞRUNDA!
# iki sahil
Son səhifə
www.ikisahil.az / www.ikisahil.tv
16
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 161 (7416) / Cümə axşamı, 5 sentyabr 2019-cu il

# Qan vermək nədir?



Qan istehsal edilməyən toxuma olduğuna görə, yeganə mənbəyi sağlam qan ianəçiləridir. Qan ianəsi həm ictimai, həm fərdi baxımdan əhəmiyyət daşıyır. Çünki insan qan verdiyi zaman orqanizm yeni qan istehsal edir və bunun orqanizm üçün faydası çoxdur. Qan ianəsi, sağlam olan şəxsdən alınan bir miqdar qanın ehtiyac sahibi olan bir şəxsə ötürülməsi prosesidir. Böyük xəstəxanalarda qan toplama (qan bankı) mərkəzləri yerləşir. Toplanan qan ehtiyac duyulduqda istifadə edilmək üzrə soyuq dolablarda saxlanılır.

**Kim qan verə bilər?**

Yaşı 18-65, çəkisi 50 kq və ondan artıq olan hər bir sağlam insan qan verə bilər. Kişilər ən tez 2 ayda bir, qadınlar isə ən tez 3 ayda bir olmaqla ildə 4 dəfədən çox olmamaq şərtilə qan verə bilərlər. Hüceyrələrin yenilənməsi isə 2 aya qədər vaxt alır. Davamlı qan verməyin insan orqanizmi üçün bir çox xeyirli tərəfləri var.

**Kim qan verə bilməz?**

Müəyyən hallar var ki, bu, sizin qan verməyinizə mane ola bilər:

Müayinədə 37.5 dərəcədən artıq bədən istiliyi olanlar, nəbz atış sayı dəqiqədə 50-dən az, 100-dən artıq olanlar, narkotik maddə asılılığı olanlar, laxtalanma faktor konsentrasiyası ilə müalicə alanlar, son 24 saatda həddindən artıq miqdarda alkoqol qəbul edənlər, soyuqdəymə keçirənlər (şikayətlərinin kəsilməsindən 3 gün sonra qan verə bilərlər), son 12 ay ərzində yoluxucu sarılığı olan biri ilə yaxın təmasda olanlar, orqan və ya toxuma köçürülməsi olanlar, iynəbatırma ilə döymə dərinizin hər hansı bir yerinə dəlik açmaq (qulaq deşdirmə kimi) kimi əməliyyat etdirənlər və son 3 il ərzində malyariya xəstəliyi keçirənlərə qan vermək olmaz.

Malyariya xəstəliyinin epidemiya olaraq yerləşdiyi coğrafi bölgələrdə 6 aydan çox qalanlar 2 il müddətində, 6 aydan az qalanlar isə 12 ay qan verə bilməzlər. İstifadə etməkdə olduğunuz dərmanlar varsa mütləq qan verdiyiniz mərkəzdəki həkimə bildirin. İnfarkt keçirən bir adam qan verə bilməz.

**Qan verərkən qansızlıq (anemiya) yaranırmı?**

Verilən qan 450 ml qədər olur. Bədəndə orta hesabla 5000-6000 ml qan olur. Alınan qan bədəndəki qanın təxmini dəyəri, 1/13-i qədəri olaraq zərər verməz. Ayrıca qan ianəsindən əvvəl qan sayımı aparılır, həkim tərəfindən qiymətləndirilir. Qan ianəsindən əvvəl aparılan müayinədə qan səviyyəsi aşağı olduğu (anemiya) müşahidə edilərsə qan vermək olmaz. Normalda sağlam fərdlər qan verərlərsə azalan qan hüceyrələri sümük iliyinin çalışması ilə sürətlə yenilənər. Onsuz da bədən, bu hüceyrələrin yaradılması və dağıdılması fəaliyyətlərini davamlı olaraq həyata keçirir. Alınan qan miqdarı isə sağlamlığa mənfi təsir edəcək səviyyədə olmadığına görə, qansız qalmaq kimi bir vəziyyət yaratmır.

**Bəs qan verməyin faydası nədir?**

Qanaxmalı bir xəstədə və ya böyük bir əməliyyatda 6-8 qutu qana və 4-5 qutu təzə dondurulmuş plazmaya ehtiyac duyulur. Problemli hamiləlik keçirən və ya qanaxmalı hamilə bir qadının həyatını davam etdirməsi üçün qan və qan məhsullarına ehtiyac olur. Həyatında qan və qan məhsullarını almaq məcburiyyətində olan hemofiliya və talessemiya xəstələrinin yaşamağı üçün qana ehtiyacı vardır. Yenidoğulan və qanın dəyişməsi üçün çox təzə qana ehtiyacı olan uşaqlar sizin qanınızı gözləməkdədirlər. Ağır böyrək xəstələrinin də həyatlarını davam etdirmələri üçün qan və qan məhsullarına ehtiyacı vardır. Qan istehsal edilməyən yeganə dərmandır. Bir gün hər kəsin qan və qan məhsullarına ehtiyacı ola bilər. Verəcəyiniz hər qan üçün pulsuz olaraq qan qrupu müəyyən edilir, Hepatit B, Hepatit C və AİDS testləri də aparılır.

**Röya Rasimqızı,**
***"İki sahil"***

# Solaxaylar haqqında nə bilirik?



Psixi xəstələr, qatillər, manyak və təcavüzkarlar çox vaxt solaxay olurlar.

Bəzi tədqiqatların nəticələrinə görə, solaxaylar sağ əldən istifadə edənlərə nisbətən 9 il az yaşayırlar.

Adətən, 40 yaşdan sonra dünyaya uşaq gətirən anaların övladları solaxay olurlar.

Vaxtından əvvəl doğulan körpələrin və "Apqar" şkalası üzrə aşağı bal alan körpələrin də adətən, solaxay olduğu üzə çıxır.

Dünyada yalnız 1% insan hər iki əlindən eyni səviyyədə istifadə etməyi bacarır.

İngilis dilində "left" "sol" sözü qədim ingilis dilində "lyft" sözündən götürülüb, "zəif", "qırıq" mənasını verir.

Solaxaylıq nəsildən-nəslə keçə bilir.

Solaxaylar vəhşiliyə və cinayətə daha çox meylli olurlar və adətən solaxay uşaqlar daha çox inadcıllıq edirlər.

Eskimoslarda solaxayların hamısı potensial sehrbazlar hesab edilirdi. Mərakeşdə solaxayları "s'ga"-şeytan adlandırırlar. Şimali Amerikada isə solaxaylığı uğurun göstəricisi kimi qəbul edirlər.

Solaxay kişilərin sayı solaxay qadınlardan daha çoxdur.

Solaxay məşhurlardan Ancelina Coli, Barak Obama, Culia Roberts, Nikol Kidman, Opra Uinfrey, Corc Buş, Uinston Çerçil, Pikasso, Çarli Çaplin, Skarlet Yohanson, Merlin Monro, Bill Qeyts və başqalarını göstərmək olar.

# "Bavariya"dan rekord gəlir



"Bavariya" ötən mövsüm rekord həddə gəlir əldə edib.

Milli.Az qol.az-a istinadən xəbər verir ki, Münhen təmsilçisinin ötən mövsüm dövriyyədəki pulu 750,5 milyon avro olub ki, bu da klub tarixində rekord göstəricidir.

"Bavariya" sponsorluq güzəştləri, yayım hüquqlarının satılması və bilet gəlirləri hesabına bu gəlirə nail olub.

Klubun xalis mənfəəti 52.5 milyon avro təşkil edib. Bu isə ötən mövsümlə müqayisədə 72 faiz artımdır.

# "Genesis" "Essentia" və "Mint" konseptlərinin seriya variantını buraxacaq



"Genesis" markasının rəhbərliyi Nyu York avtosalonunda debüt etmiş "Mint" konseptinin seriya variantının hazırlanmasına "yaşıl işıq" yandırıb. Lakin bəxti açılan yeganə konsept "Mint" deyildir - Essentia konseptinin də seriya variantı üzərində çalışmalara start verilib.

Milli.Az autograph.az-a istinadən bildirir ki, bu barədə "Motor Trend" nəşrinə "Genesis" markasının rəhbəri Manfred Fitcerald məlumat verib. "Genesis" rəhbəri "Essentia" modelinin ilkin konsepsiyasında dəyişiklik edildiyini də bildirib. Konsept sırf elektrik ötürməsi ilə hərəkətə gəlsə də, onun seriya variantı hibrid olacaq. Bununla belə, top-menecer karbon monokokundan və "kəpənək qanadları" formasında qapılardan imtina edildiyi barədə bir şey söyləməyib.

Eyni zamanda, Manfred Fitcerald "Genesis" markasının model xəttinin yığcam şəhər hetçbeki ilə genişləndirilməsi ehtimalının da yüksək olduğunu qeyd edib. O, şəhər avtomobilinin əsas üstünlüklərinin kiçik ölçülər, geniş salon və praktik olacağını qeyd edib. "Genesis" nümayəndəsinin bildirdiyinə görə "Mint" dolu batareya ilə 322 km qət edə bilər.

Manfred Fitcerald konsept avtomobillərinin seriya variantlarının debüt tarixi barədə məlumat verməsə də, yaxın zamanlarda iki yeni krossoverin təqdim ediləcəyini təsdiqləyib. "Genesis GV80" modeli gələn ilin əvvəlində, "Genesis GV70" isə 2021-ci ildə satışa çıxarılmalıdır.

**ELAN:**

***Arif Kamal oğlu Kərimovun adına Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş Çıxarış (0074029) və Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Abşeron Ərazi İdarəsi tərəfindən verilmiş torpaq sahəsinin plan və ölçüsünə dair sənədlər (№ AA 044203) itdiyi üçün etibarsız sayılır.***

**ALLAH RƏHMƏT ELƏSİN!**

SOCAR-ın Yaşayış sahələri üzrə iş şöbəsinin əməkdaşları şöbənin böyük mühəndisi Nüşabə Paşayevaya, qayınatası

**Tahir Əliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi: SOCAR

Baş redaktor: **Vüqar RƏHİMZADƏ**
Baş redaktorun I müavini: **İsmayıl Hacıyev**
Baş redaktorun müavini: **Rəşad Bağırov**

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
**Kod №** 200071
**VÖEN:** 2000157291

**TELEFONLAR:**
*Qəbul otağı:* **530-26-46, 430-87-97**
*Baş redaktorun I müavini:* **530-26-36**
*FAX:* **430-87-47**
*Mühasibatlıq:* **430-87-27**
*e-mail:* **ikisahil@azdata.net**

**Ünvan:**
AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 05.09.2019-cu il saat 01:00
*Qiyməti:* **40 qəpik**, *Sayı:* **8182**
*İndeks:* **0151**, *Sifariş:* **2925**

Qəzetdə ***"AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX*** informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.